# *AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİNİN*

# *2006-CI İL ÜÇÜN İLLİK HESABATI*

## “Azərbaycan Qızıl Aypara Cəmiyyəti humanitar sahədə hökumətin ən etibarlı dayaqlarından birinə çevrilib.”

Dövlətin prioritet sahələrindən biri olan humanitar iyasətin inkişafına yetərincə önəm verilməsi, beynəlxalq humanitar təşkilatların respublikamızda öz nümayəndəliklərini açaraq fəaliyyət göstərmələri, eyni zamanda yerli humanitar təşkilatların fəaliyyətinin müasir tələblər səviyyəsində həyata keçirilməsi üçün yaradılan şərait, bir daha dövlətin vətəndaşların rifah halının yüksəldilməsi istiqamətində həyata keçirdiyi işlərin bariz nümunəsidir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti (Az.QAC) 87 illik şərəfli tarixi yol keçmiş, hər zaman humanitar sahədə xalqın rifahı naminə yorulmadan çalışan, humanizm, mərhəmət və xeyirxahlıq kimi hissləri özündə təcəssüm etdirən Milli Cəmiyyət olaraq daima dövlətin qayğısı ilə əhatə olunmuşdur. Milli Cəmiyyətin fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasından istifadə edərək öncə maliyyə təminatının gücləndirilməsi məqsədilə müvafiq strategiya müəyyənləşdirilmiş və bunun sayəsində xarici donor təşkilatlarının müxtəlif layihələrə cəlb olunması əsas prioritet kimi seçilmişdir. Inkişaf etmiş digər Milli Cəmiyyətlərin müasir iş təcrübəsini özünün praktik fəaliyyətinə tətbiq edən Az.QAC, həmçinin, həyata keçirilən uğurlu fəaliyyəti zamanı qazandığı nailiyyətləri Beynəlxalq Hərəkatın təmsilçiləri tərəfindən yüksək dəyərləndirilir.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin respublikada həyata keçirdiyi müxtəlif sosial-tibbi layihələri əhalinin sağlamlığı və fəlakətlər zamanı davranış qaydalarının mənimsənilməsi istiqamətində kifayət qədər uğurların əldə edilməsinə zəmin yaratmışdır. Icma iştiraklı inkişaf metodunun yerlərdə tətbiqi üzrə həyata keçirilən proqramlar, insan resurslarının maksimum səfərbər edilməsi, qarşıya çıxan problemlərin həllinə birgə çalışmaları, yerli icra orqanları ilə qarşılıqlı işgüzar münasibətlərin möhkəmlənməsi regionlarda yaşayan insanların sosial səviyyəsinin yüksəldilməsinə verilən ən böyük töhfələrdəndir.

Az.QAC-ın strategiyası Beynəlxalq Hərəkatın standartlarına uyğun və fundamental prinsiplər əsasında qurulmuşdur. Bu da bütün Milli Cəmiyyətlərin, o cümlədən də Az.QAC-ın Beynəlxalq Hərəkat çərçivəsində daha sıx əməkdaşlıq edərək humanitar dəyərlərin aşılanması istiqamətində uğurlu fəaliyyətini təmin etmişdir. AZ.QAC-ın Baş Məclisi 2005-2007- ci illər üçün Strateji Plan müəyyənləşdirərək qəbul edilmişdir. Bu strateji planın əsas prioriteti Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarının gücləndirilməsi sayəsində mərkəzi və yerli fəaliyyətini daha da səmərəli edərək ehtiyaclarə təmin etməkdən ibarətdir.

Bu istiqamətdə müxtəlif proqramlar həyata keçirilir və mən bunlardan bir neçəsini xüsusilə qeyd etmək istəyirəm. “Fövqəladə Hallara Hazırlıq və Cavabvermə”, “Gənclər və könüllülərin Hərəkata cəlb edilməsi”, “Sağlamlıq qan donorluğu”, “HİV-ə qarşı mübarizə”, cəbhəyanı bölgələrdə “Təhlükəsiz oyun meydançaları”, “Humanitar

dəyərlərin yayımı” və s. bu proqramların uğurla həyata keçirilməsi sayəsində Milli Cəmiyyət böyuk nailiyyətlər əldə etmişdir. Neçə-neçə insanlarımız qarşılaşdığı problemlərin həllini məhz bu strateji planın əsasını təşkil edən layihələrin düzgün və məqsədyönlü şəkildə həyata keçirilməsi sayəsində həll etməyə nail olmuşdur. Bütün bunlar bir daha Milli Cəmiyyətin uğurlarından xəbər verir və bu uğurların davamlılğını təmin etmək üçün Az.QAC bütün mümkün vasitə və imkanlardan istifadə edir.

Az.QAC eyni zamanda Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyi ilə sıx əməkdaşlıq edir. Birgə həyata keçirilən layihələr sayəsində bir çox problemin həllinə nail olmuşuq. Xüsusən, cəbhə bölgələrində yerləşən kəndlərin əhalisinin mina təhlükəsindən qorunması məqsədilə kifayət qədər əməli işlər görülüb və “Təhlükəsiz oyun meydançalrı” layihəsi məhz belə layihələrdəndir. Bundan başqa BQXK-ın maliyyə dəstəyi ilə Beynəlxalq Humanitar Hüququn Əsasları və BQX/QAH-nın Fundamental Prinsiplərinin Yayımı və Axtarış xidməti layihələrini də göstərmək olar.

Həmçinin, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası Azərbaycan nümayəndəliyi ilə qarşılıqlı işgüzar münasibətlər, respublikada aktual problemlərin həlli istiqamətində maarifləndirmə işlərinin aparılmasında əhəmiyyətli rol oynayır. Bu sahədə kifayət qədər üğurlar əldə edilib.

Son zamanlar dənyada təbii fəlakətlərin kütləvi xarakter alması hər bir dövlətin bu aktual problemin həlli istiqamətində fəaliyyətini daha da gücləndirmək zərurəti yaratmışdır. Azərbaycan Qızıl Aypara Cəmiyyəti respublikada bu kimi problemlərin həllində təkrarçılığa yol verilməməsi məqsədilə 2006-cı il noyabr ayının 11-də Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə qarşılıqlı işgüzar əlaqələri özündə təsbit edən memorandum imzalanmışdır. Bu da hökumət və Milli Cəmiyyət arasında mövcud əlaqələrin bu yönümdə daha da effektiv inkişaf etdirilməsi sahəsində atılan ən zəruri addımlardandır.

Sonda onu vurğulamaq istəyirəm ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti ümumxalq Cəmiyyətidir və hər bir Azərbaycan vətəndaşı həyata keçirilən bu nəcib və xeyirxah missiyanın müşahidəçisi kimi deyil, iştirakçısı olaraq əməli işlər görməlidir...

**Azərbaycan Qızıl Aypara**
**Cəmiyyətinin prezidenti,**
**Milli Məclisin deputatı** **Novruz Aslanov**

# Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Missiyası

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara xidmət etmək

## Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsipləri

### HUMANİZM

Ayrı-seçkilik etmədən döyüş meydanlarında yaralılara yardım göstərmək zərurətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər beynəlmiləl, istərsə də milli səviyyədə hər hansı bir şəraitdə insan iztirablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır. Hərəkat insan həyatı və sağlamlığını qorumaqla yanaşı, insan şəxsiyyətinə hörmətlə yanaşmağı da himayə etmək məqsədi güdür. O, bütün xalqlar arasında qarşılıqlı anlaşma, dostluq, əməkdaşlıq və möhkəm sülh olması üçün çalışır.

### QƏRƏZSİZLİK

Hərəkat heç kəsə dini, irqi, milli xüsusiyyətlərinə sinfi mənsubiyyətinə, siyasi əqidəsi və sosial mövqeyinə görə fərq qoymur. O, adamların düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir; ilk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

### NEYTRALLIQ

Hamının ona olan inamını qoruyub saxlamaq məqsədilə, hərbi münaqişələrdə heç bir tərəfi müdafiə etməyərək, düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və ideoloji mübahisələrdə bitərəf mövqe nümayiş etdirir.

### MÜSTƏQİLLİK

Hərəkat müstəqildir. Öz insansevərlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər öz muxtariyyatlərını qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç Hərəkatının prinsipləri ilə işləmək imkanı verir.

## KÖNÜLLÜ XİDMƏT

Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

## VAHİDLİK

Bir ölkədə yalnız bir Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıq olmalı və öz insansevərlik fəaliyyətini ölkənin bütün ərazisində görməlidir.

## UNİVERSALLIQ

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümumbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətlərin bərabər hüquqları vardır və onlar bir-birilərinə kömək etməyə borcludurlar.

# Fövqəladə Hallara Hazırlıq və Cavabvermə

2006-ci ilin Noyabr ayında Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Fövqəladə Hallar Nazirliyi arasında ikitərəfli Anlaşma memorandumu imzalanmışdır.
Memorandumda tərəflər arasında qarşılıqlı əməkdaşlıq üçün fəaliyyət istiqamətləri (fəlakət zamanı yardım tədbirlərinin həyata keçirilməsi, zərər çəkmişlərə ilk yardım, səhiyyəvə axtarış xidmətləri, qan donorluğu) müəyyən edilmişdir.

Fevral ayında Qızıl Ayparanın Prezidenti «Quş Qripi» nə qarşı mübarizə ilə bağlı Xəbərdarlıq və Əks - epidemik tədbirlərin gücləndirilməsinə dair müvafiq əmr imzalamışdır. Əmrdə Fövqəladə Hallara Hazırlıq və Cavabvermə İdarəsinə və Sağlamlıq və Qayğı şöbəsinə tapşırılmışdır ki, qısa bir müddət ərzində «Quş Qripi» ilə bağlı fəaliyyət planı hazırlansın və həyata keçirilsin.

«Quş Qripi» ilə bağlı fevral ayının 27-də Bakı Mətbuat Mərkəzində Az.QAC-ın bütün RM koordinatorları, İlk Yardım təlimatçıları, Gənclər və Könüllülər üzrə koordinatorlar, eləcə də Respublika Baytarlıq İdarəsinin əməkdaşı, Dünya Səhiyyə Təşkilatının nümayəndəsi və KİV nümayəndələrinin iştirakı ilə geniş seminar keçirilmişdir.

«Quş Qripi» ilə bağlı Regional Mərkəzlərdə keçiriləcək treyninqlərə Sağlamlıq və Qayğı şöbəsi ilə birgə hazırlıq işləri aparılmışdır. «Quş Qripi» fövqəladə hal kimi mövzusunda prezentasiyalar edilmişdir. Bu treyninqlər Gəncə, Mingəçevir, Lənkəran və Sumqayıt RM-də keçirilmiş və həmin treyninqlərdə Rayon Komitə sədrləri və hər RK-dən 5 fəal könüllü iştirak etmişdir. Keçirilmiş seminarlar KİV-də işıqlandırılmış və televiziya

kanallarına görülmüş işlər, planlar və Qızıl Ayparanın rolu haqda müsahibələr verilmişdir.

AzQAC-ın 7 RM-nin hər birində işçilərə və MKD-ə «Fövqəladə hallarda vəziyyətin və ehtiyacların qiymətləndirilməsi, fəlakət yardımları zamanı Qızıl Xaç və Qızıl Aypara üçün prinsip və qaydalar, fəlakət yardımları zamanı Qızıl Xaç və Qızıl Aypara üçün davranış qaydaları», fəlakətlər zamanı zavallı insanlara «psixoloji yardım» treyninqləri keçirilmişdir.

Anbarlama və təchizat prosedurları treyninqi üçün materiallar hazırlandı və 2006-cı il İyunun 20-də 7 regional mərkəzin 14 işçsi və katibliyin 11 nəfər müvafiq işçsi üçün anbarlama və təchizat prosedurları treyninqi keçirildi.

4-5 İyul tarixlərində 24 nəfərdən ibarət könüllü və işçilərə Bakı şəhərində Fəlakətin idarə edilməsində işlədilən termin və anlayışlar, Ehtiyacların qiymətləndirilməsi, Fövqəladə hallarda psixoloji yardım, Fəlakət yardımları zamanı davranış qaydaları, Fəlakət yardımları zamanı prinsip və qaydalar, fundamental prinsiplər təlimləri verildi. Quş qripi xəstəliynin yayılmaması üçün əhalinin maarifləndirilməsi və məlumatlandırılması yolları üzrə iştirakçılara təlimlər verildi.

9 Avqust ıə 19 avqust tarixlərində uyğun olaraq Sabirabad və Bakı Regional Mərkəzlərinin Mobil Könüllü dəstələrinə (hər regiondan 15 könüllü olmaqla). «Fəlakətin idarə edilməsi və Fövqəladə hallarda psixoloji yardım» mözusunda treyninq keçirildi.

7 Sentyabr və 25 Sentyabr tarixlərində uyğun olaraq Gəncə və Mingəçevir Regional Mərkəzlərinin Komitə sədrlərinə və icma üzvlərinə «İcmanın fəlakət barədə məlumatlılığının artırılması» mözusunda treyninq keçirildi

15-24 Sentyabr tarixlərində Türkiyənin Ankara şəhərində RDRT (Regional Səviyyədə Fövqəladə Hallara Cavabvermə Komandası) treyninqində 3 nəfər (1 işçi və 2 könüllü) iştiak etdi.

25 Sentyabrda Sumqayıt RM-nin Mobil Könüllü Dəstəsinə Fövqəladə hallarda psixoloji yardım» mövzusunda treyninq keçirildi.

9 Oktyabr 2006-cı il tarixində Lənkəran Regional Mərkəzinin, Astara, Masallı, Lerik və Yardımlı Rayon Komitələrinin əməkdaşları və könüllülərinin iştirakı ilə fəlakət riskinin azaldılmasına nail olmaq məqsədilə «Meşə yanğınları və meşələrin qırılması əleyhinə kampaniya» həyata keçirildi.

06-07 Noyabr 2006-cı il tarixlərində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsi tərəfində öz fəaliyyətinə uyğun olaraq Cəmiyyətin Sabirabad Regional Mərkəzində Cəmiyyətin 24 əməkdaşı və könüllülərinin iştirakı ilə «Fəlakətin idarə edilməsi» mövzusu üzrə 2 günlük təlim keçirildi.

Şöbənin 1 əməkdaşı 10-20 Noyabr tarixlərində Türkiyənin İzmir şəhərində Beynəlxalq Federasiyanın təşkil etdiyi İmkanlılığın və imkansızlığın qiymətləndirilməsi üzrə təlim kursunda iştirak etdi.

25 Noyabr tarixində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin və Sumqayıt Şəhər İcra Hakimiyyətinin rəhbərliyi ilə Sumqayıt «Üzvi sintez» zavodunda təşkil edilmiş taktiki xüsusi təlimlərdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin FHHC şöbəsinin işçiləri və Sumqayıt Regional
Mərkəzinin işçi və könüllülərindən ibarət 16 heyəti iştirak etdi.

Erkən Xəbərdarlıq sisteminin təşkili üçün Telefon Yaddaş kitabçası çap edilmiş, Regional Mərkəz və yerli komitələrinə paylanmışdır.

İcmanın Fəlakət barədə məlumatlılığının artırılması işinin təşkili məqsədilə məktəbyaşlı uşaqlar üçün vəsait ingilis dilindən Azərbaycan dilinə tərcümə edildi.

«Fövqəladə hallarda Ehtiyacların Qiymətləndirilməsi üçün yeni vəsait tərcümə edildi.

Fəlakətlərə vaxtında və effektiv cavab vermək üçün Sabirabad RM-nin anbarı fəaliyyətə başlamışdır.

## Sağlamlıq və Qayğı

Fəaliyyət planına əsasən Bakıda, Sumqayıtda, Sabirabadda, Lənkəranda, Mingəçevirdə və Gəncədə 71 nəfər sağlamlıq işçisi fəaliyyət planına əsasən icmalarda səhiyyə maarifi işi aparmışlar. Bundan başqa Sabirabad çadır düşərgələridə sağlamlıq işçiləri tərəfindən əhali arasında səhiyyə maarifi işi aparılıb.

| Mövzunun adı | Cəlb olunanların sayı |
|---|---|
| Ailə planlaşdırılması, HİV/AİDS | 2615 |
| Qidalanma | 3666 |

| | |
|---|---|
| Şəxsi gigiyena və sanitariya | 7566 |
| İnfeksion xəstəliklər (malyariya, vərəm, quş qripi) | 12871 |
| Ətraf mühit və sağlamlıq | 3974 |
| Daxili xəstəliklər (süd vəzisinin xərçəngi) | 3515 |
| | |
| Ümumi | 34207 |

2006-ci ilə nəzərədə tutulmuş **9 nəfər** (Ağcəbədi-1 nəfər, Fizuli- 2 nəfər, Xanlar- 2 nəfər və Bakı -4 nəfər) RK-dən yeni sağlamlıq işçisi hazırlanmışdır. Yeni sağlamlıq işçilərinin vəzifəsi əhali arasında müxtəlif xəstəliklər barəsində xəbərdarlıq işinin aparılmasından ibarətdir.

Bakı və Respublika regionlarında əhali arasında xəstəliklərin yayılmasının və yayılma səbəblərinin məlumat səviyyəsini öyrənmək məqsədi ilə könüllü sağlamlıq işçiləri tərəfindən **700** nəfər əhali arasında sorğular aparılmışdır.

2006-cı ilin yanvar və fevral aylarından başlayaraq Respublikada «Quş qripi» xəstəliyinin yayılması təhlükəsi mövcud idi. Bununla bağlı, «Quş qripi» xəstəliyinə aid Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiyasının hazırladığı sənədləri əsas tutaraq, Qızıl Ayparanın «Sağlamlıq və qayğı» şöbəsi öz bilik və bacarıqlarını bu xəstəliyin yayılmasının qarşısının alınmasına yönəltmişdir.

Belə ki, **Mart – aprel aylarında** Qızıl Aypara «Quş qripi ilə mübarizə» adlı kompaniya keçirmişdir. Kompaniya çərçivəsində «sağlamlıq və qayğı» şöbəsi hökümət və qeyri-hökumət təşkilatları ilə görüşmüş, bu mövzuda yeni plakat və bukletlər nəşr etdirmiş, Regional Mərkəz və Yerli Komitələrində bu yönumdə təlim və görüşlər təşkil etmişdir. Kompaniya **24 rayon , 366 kəndi** əhatə etmişdir. **120** nəfər təlimatlandırılmış könüllü sağlamlıq işçisi əhali arasında quş qripinə aid maariflәndirilmə işləri aparmışdırlar. Eyni zamanda İl ərzində, İMC, Kənd Təsərrüfatı Nazirliyinin nəzdində yerləşən Baytarlıq İdarəsi, UNİCEF, FAO kimi digər hökumət, qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edilmişdir.

24 mart «Ümumdünya Vərəmlə Mübarizə Günün» - nə həsr olunmuş bir sıra təlim və görüşlər keçirilmişdir. Tədbirlərə Milli Vərəm Proqramının mütəxəssisləri də qoşulub əhalini narahat edən suallara cavab vermişlər. Vərəmə aid film nümayiş etdirilmiş, əyani vəsaitlər paylanılmışdır. 100 nəfər İştirakçının vərəm xəstəliyi haqqında bilik səviyyəsini öyrənmək məqsədi ilə sorğular aparılmışdır. Vərəm xəstəliyinə aid uşaqlar

üçün Qızıl Ayparanın könüllü sağlamlıq işçiləri tərəfindən yazılmış «Sağlamlıq ölkəsinin əhvalatı» adlı nağıl-kitabından 2000 ədəd yenidən çap olumuşdur.

Qızıl Aypara 7 Aprel «Ümumdünya Sağlamlıq Günü» kompaniyasını Respublikada «Quş qripi ilə mübarizə» də profilaktik tədbirlərə həsr etmişdir. Həmin gün əhalinin quş qripi haqqında məlumat səviyyəsini öyrənmək məqsədi ilə 300 nəfər arasında sorğu keçirilmişdir.

21 May QİCS xəstəliyindən ölənlərin xatirəsini anma günü kimi qeyd olunmuşdur. «Sağlamlıq və qayğı» şöbəsi də orada iştirak edərək, əhalinin bu mövzuda məlumat səviyyəsini öyrənmək və

əhalinin *İİV-ə* yoluxmuş insanlara münasibətinin hansı səviyyədə olmasını aşkar etmək məqsədi ilə sorğu keçirmişdir. Ümumilikdə 118 nəfər arasında sorğular aparılmışdır.

*QİÇS-dən* vəfat edənlərin xatirəsini yad etmək məqsədilə *QİÇS-in* qəbul olunmuş emblemini yəni qırmızı lenti əks etdirən şamlarını yerdə düzərək yandırmışlar.

«31 may – Ümumdünya Tütünlə Mübarizə Günü» olduğundan, Cəmiyyətimiz tərəfindən bu

günə həsr olumuş, müxtəlif tədris ocaqlarında və internatlarda, yeniyetmə və gənclər arasında sorğular aparılmış, debatlar, təlimlər və seminarlar keçirilmişdir.

«10 Oktyabr – Ümumdünya Psixi Sağlamlıq Günü»-nə həsr olunmuş kompaniyanı «Sağlamlıq və qayğı» şöbəsi Azərbaycan Praktiki Psixoloqlar, Azərbaycan Psixoloqlar, Azərbaycan Psixiatriya Assosiasiyaları ilə birgə təşkil etmişdir. 2006-ci ilin mövzusu olan «Özünə sui-qəsd etmə halları, depressiya və şizofreniya kimi xəstəliklərin qarşısının alınması» na aid valideyn, gənclər aprasında bir sıra, təlim, mütəxəssiz tərəfindən məsləhətlər, görüşlər təşkil olunmuşdur. Tədbirlərin birində Respublikanın Baş psixiatrı gəncləri narahat edən sualları cavablandırmışdır. Tədbirin davamı olaraq, Az.QAC-in tərəfindən psixoloji problemlərini araşdırmaq məqsədilə 10 nəfər gəncə mütəxəssisin məsləhəti təşkil olunmuşdur. Həmin gün Qızıl Aypara könüllüləri «Daun Sindromlu Uşaqlar İçtimai Birliyi» – nin nümayəndələri ilə birgə Maştağa qəsəbəsində yerləşən ruhi xəstələr üçün xəstəxanaya baş çəkib, onlar üçün konsert təşkil etlmişlər.

– Dekabrın 5-i «Ümumdünya Könüllülər günü» – ndə Cəmiyyətin könüllüləri şəhərdə yürüş keçirmişlər. Tədbirdə 150 nəfər iştirak etmişdir. Yürüşdən sonra könüllülər üçün «Xəzər» restoranında əyləncəli proqram hazırlanmış və tədbir zamanı fəal könüllülərə təşəkkürnamələr təqdim olunmuşdur.

## QAN DONORLUĞUNUN İNKİŞ AFI

2006-ci ildə Bakının 11 rayonundan, Gəncə, Sabirabad, Mingəçevir, Sumqayıt RM-dən **72** nəfər qan donorluğu üzrə təlimatlandırılmışdır. Könüllülər tərəfindən Bakı və yuxarıda qeyd olunan regionlarda könüllülər tərəfindən qan donorluğuna aid icmalarda əhali arasında sorğular aparılmış, müxtəlif tədris ocaqlarında görüşlər, təlim-məşğələlər keçirilmişdir.

İl ərzində qan donorluğu sahəsində **7850** nəfər arasında könüllü təmənnasız donorluq haqqında maarifləndirmə işlrəi aparılmışdır.

Qızıl Aypara Azərbaycan Hemofiliya və Azərbaycan Talassemiya Assosiasiyaları ilə birgə Qan Bankının mütəxəssisləri vasitəsi ilə, müxtəlif tədris ocaqlarında-İqtisad Universiteti, Milli Neft Akademiyasında və digər yerlərdə ümumi olaraq **10 qanvermə aksiyası** təşkil etmişdir. Bu aksiyalarda Qan Bankı tərəfindən verilən məlumata görə **605 nəfər** könüllü təmənnasız qan vermişdir.

2006-ci ilin 14 İyun «Ümumdünya Qan Donorluğ Günü» nə həsr edilmiş kampaniya keçirilmişdir. Həmin kampaniyada təntənəli şəkildə 50 nəfər mütəmadi donorlara təşəkkür bildirilmiş, hədiyyələr təqdim edilmişdir.

Proqram çərçivəsində qan donorluğuna aid olan liflet, pakat və digər əyani vəsaitlər hazırlanmışdır.

## AZADLIĞA BURAXILAN VƏRƏMLİ MƏHKUMLARIN DAVAMLI MÜALİCƏSİNƏ NƏZARƏT

2006-ci ildən başlayaraq, Qızıl Aypara Cəmiyyəti BQXK-ə ilə birgə Bakının Nərimanov, Sabunçu, Qaradağ, Yasamal, Əzizbəyov və Binəqədi rayonlarında yaşayan «azadlığa buraxılan vərəmli məhkumların davamlı müalicəsinə nəzarət» adlı proqram həyata keçirmişdir. Proqram pilot olduğundan yuxarıda qeyd olunan rayonlarda fəaliyyət göstərən 6 nəfər tibb bacısı cəlb olunmuşdur. Onlara BQXK tərəfindən Vərəm haqqında və vərəmli məhkumlarla davranış qaydaları haqqında xəstəliyin

profilaktikası, diaqnostika və müalicəsinə aid olan təlim keçirilmişdir. AzQAC isə tibb bacılarına sosial iş üzrə tilim təşkil etmişdir.

Bu proqram çərçivəsində azadlığa buraxılan vərəmli məhkumların siyahısına əsasən həmin xəstələrin yerli vərəm dispanserlərinə qeydiyyata düşməsi, onlara DOTS müalicə proqramına aid olan dərmanların əldə edilməsi və xəstəyə çatdırılarkən qəbuluna nəzarət edilməsi, xəstə və onun ailə üzvlərinin vərəm haqqında maarifləndirməsi, onlara psixoloji dəstəyin edilməsi kimi fəaliyyətlər QIzıl Ayparanın 6 tibb bacısı tərəfindən həyata keçirilir.

Proqram çərçivəsində **23 nəfər** vərəmli xəstə əhatə olunub, onlardan **17-si azadlığa buraxılan vərəmli məhkumlardır. 5 nəfər xəstə DOTS** müalicə kursunu bitirmişdir. 4 nəfər azadlığa buraxılan vərəmli məhkumlara psixoloq-mütəxəssiz tərəfindən müainə təşkil olunmuşdur. Onlardan biri xüsusi müalicəyə ehtiyacı olan müəyyən edilmişdir.
2006 -ci ildə «İcmada sağlamlıq» proqramı çərçivəsində Bakıda çalışan 16 nəfər könüllü sağlamlıq işçisi və «Azadlığa buraxılan vərəmlə məhkumlarının davamlı müalicəsinə nəzarət» proqramında fəaliyyət göstərən tibb bacıları üçün ABŞ-da Sosial İş üzrə magistr dərəcəsini alan mütəxəssiz tərəfindən psixo-sosial iş haqqında iki günlük təlim keçirilmişdir.

## İLK YARDIM

Beynəlxalq QX/QA Cəmiyyətləri Federasiyasının 2010-cu ilə qədər olan dövr üçün
Strategiyasına uyğun olaraq İlk Yardım proqramının əsas prioritet sahələri Fövqəladə Hallara
Hazırlıq və sağlamlıq proqramlarına inteqrasiya olmaqdır.

Bu baxımdan Qızıl Ayparanın İlk Yardım proqramı çərçivəsində əhalinin ekstremal şəraitlərdə, bədbəxt hadisələrdə və qəfil xəstəliklər zamanı həyatını xilas etmək, ixtisaslı həkim yardımı gələnə qədər zərərçəkmişlərin ağrılarını azaltmaq və ağırlaşmaların qarşısını almaq haqqında icmaların maarifləndirilməsi həyata keçirilir.
2006-cı ildə **19 İlk Yardım təlimatçısı** tərəfindən **2432 nəfər** dinləyiciyə «İcmaya əsaslanan İlk Yardım»-a aid təlimlər keçirilmişdir. Treyninq məşğələlərdə hədəf qrupu məktəbli uşaqlar və onların müəllimləri, həmçinin, Milli Cəmiyyətin işçiləri və könüllüləri, respublikanın müxtəlif rayonlarında məskunlaşan qaçqın və məcburi köçkünlər olmuşdur.

2006-cı ilin sentyabr ayında ənənəvi olaraq, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İlk Yardım layihəsi çərçivəsində «Ümumdünya İlk Yardım Günü»-nə həsr edilmiş bir sıra tədbirlər həyata keçirilmişdir.

Sentyabrın **7-də** Qızıl Ayparanın «Sağlamlıq və qayğı» şöbəsi və «Gənclər Komitəsi» birgə Uşaq Vərəm Dispanserinə səfər etmişlər. Təşkilatçılar orada müalicə alan kiçik yaşlı uşaqlarla yol hərəkəti qaydaları, ilkin tibbi xidmət haqda geniş söhbətlər aparmışlar. Eləcə də, bu mövzuda uşaqlarla müxtəlif oyunlar keçirilmişdir ki, onların yaddaşında həyat üçün son dərəcədə vacib olan bu mövzular daha yaxşı qalsın. Qızıl Ayparaçılar dispanserdə olan uşaqlar arasında həmin mövzularda rəsm müsabiqəsi də həyata keçirmişlər. 20 günü əhatə edən müsabiqə 27 sentyabr tarixində sona çatmışdı; qaliblərə masaüstü oyunlar, uşaq ensiklopediyaları hədiyə edilmişdir.

İlk yardım layihəsi çərçivəsində yol hərəkəti qaydaları və ilk yardım vərdişləri haqqında əhalinin məlumat səviyyəsini öyrənmək məqsədilə sürücülər və sərnişinlər arasında mütəmadi olaraq təbliğat işləri aparılmışdır.

## HİV/AİDS

Yaşa uygun HİV/AİDS-lə bağlı bilikləri təmin etmək, gənclərə zəkalı qərar qəbul etməsində kömək, HİV/AİDS xəstəliyin qarşısını almaq üçün sağlamlıqla bağlı davranışları inkişaf etdirmək.

Yanvar ayı ərzində treynerlərimiz tərəfindən təhsil ocaqlarında HİV/AİDS sessiyaları həyata keçirilmiş və nəticədə 546 nəfərə maarifləndirmə işi aparılmışdır.

09 fevral tarixində Tibb Universitetində 17 nəfər, 18 fevral tarixində Dövlət Pedaqoji Universitetində 18 nəfər tələbə üçün HİV/AİDS mövzusunda sessiyalar keçirilmişdir. 16-17 fevral tarixlərində QAC Regional Mərkəzlərinin rayon komitələrindən gələn 26 nəfər və 23-25 fevral tarixlərində Gəncə Regional Mərkəzinin yerli komitələrindən olan 24 nəfər könüllü üçün 2 günlük HİV/AİDS treyninqi keçirilmişdir. Könüllülər AİDS treynerləri qismində hazırlanmış və növbəti aydan başlayaraq fəaliyyətə başlayıb, müvafiq sessiyalar həyata keçirmişlər. Ay ərzində 693 nəfərə maarifləndirmə işi aparılmışdır.

27-28 mart tarixdə Mingəçevir Regional Mərkəzinin yerli komitələrindən olan 25 nəfər könüllü üçün 2 günlük HİV/AİDS treyninqi həyata keçirilmişdir. Könüllülər AİDS treynerləri qismində hazırlanmış və növbəti aydan başlayaraq fəaliyyətə başlayıb, müvafiq sessiyalar həyata keçirmişlər. Ay ərzində 2327 nəfərə maarifləndirmə işi aparılmışdır.

10-11 aprel tarixdə Sabirabad Regional Mərkəzinin yerli komitələrindən olan 20 nəfər könüllü üçün, 20-21 aprel tarixində İsmayıllı Rayon Komitəsindən olan 20 nəfər könüllü üçün, 2 günlük HİV/AİDS treyninqi həyata keçirilmişdir. Könüllülər AİDS treynerləri qismində hazırlanmış və növbəti aydan başlayaraq fəaliyyətə başlayıb, müvafiq sessiyalar həyata keçirmişlər. Ay ərzində 2477 nəfərə maarifləndirmə işi aparılmışdır.

22-23 may tarixdə Sumqayıt Regional Mərkəzinin yerli komitələrindən olan 19 nəfər könüllü üçün, 2 günlük HİV/AİDS treyninqi həyata keçirilmişdir. Ay ərzində 2572 nəfərə maarifləndirmə işi aparılmışdır.

22-23 iyun tarixdə Gəncə Regional Mərkəzinin yerli komitələrindən olan 25 nəfər könüllü üçün, 2 günlük HİV/AİDS treyninqi həyata keçirilmişdir. Könüllülər AİDS treynerləri qismində hazırlanmış və növbəti aydan başlayaraq fəaliyyətə başlayıb, müvafiq sessiyalar həyata keçirmişlər. Ay ərzində 2445 nəfərə maarifləndirmə işi aparılmışdır.

28-29 iyul tarixdə Mingəçevir şəhərində Gəncə, Lənkəran və Mingəçevir Regional Mərkəzlərindən olan 27 nəfər AİDS treyneri üçün, təcrübə mübadiləsi məqsədilə 2 günlük görüş həyata keçirilmişdir. Görüş zamanı müxtəlif Regional Mərkəzlərdən olan treynerlər həm öz təcrübələrindən danışmış, həm də biliklərini təzələmişlər. Ay ərzində 3630 nəfərə maarifləndirmə işi aparılmışdır.

07-09 avqust tarixində İsmayıllı Rayon komitəsindən olan 24 nəfər könüllü üçün 2 günlük HİV/AİDS treyninqi keçirilmişdir. 17-19 avqust tarixində İnformasiya şöbəsilə əməkdaşlıqda İsmayıllı rayonunda Azərbaycan QAC-nin əməkdaşların, könüllülərin və 6 nəfər AİDS-lə yaşayan xəstələrin iştirakı ilə «Öz davranışımızı dəyişməklə, dünyanı dəyişə bilərikmi?» mövzusunda piknik həyata keçirilmişdir. Ay ərzində 2100 nəfərə maarifləndirmə işi aparılmışdır.

15-18 sentyabr 2006-cı il tarixində Norvecin Oslo şəhərində HİV/AİDS-ə və Vərəmə qarşı mübarizə Avropa Regional Şəbəkəsinin ənənəvi 10-cu görüşü həyata keçirilmişdir. Həmin görüşdə Milli Cəmiyyətimizdən 2 nəfər nümayəndə iştirak etmişdir. 27-28 sentyabr 2006-cı il tarixlərində QAC Lənkəran RM-də AİDS treynerlərin fəaliyyətlərinin monitorinqi həyata keçirilmişdir. Sonra Lənkəran şəhərində yerləşən məktəblərin birində treynerlər tərəfindən AİDS sessiyası həyata keçirilmişdir. Sessiyalar zamanı meydana çıxan hər-hansı problemlərdən söhbət açılaraq geniş müzakirələr olunmuşdur. Ay ərzində 2450 nəfərə maarifləndirmə işi aparılmışdır.

25-27 oktyabr 2006-cı il tarixlərində QAC Zaqatala RK-də AİDS treynerlərin fəaliyyətlərinin monitorinqi həyata keçirilmişdir. Sonra Zaqatala rayonunda yerləşən məktəblərin birində treynerlər tərəfindən AİDS sessiyası həyata keçirilmişdir. Ay ərzində 2009 nəfərə maarifləndirmə işi aparılmışdır.

13-14 noyabr tarixdə Gəncə Regional Mərkəzinin yerli komitələrindən olan 25 nəfər könüllü və 22-23 noyabr tarixdə Lənkəran Regional Mərkəzinin rayon komitələrindən olan 25 nəfər könüllü üçün 2 günlük HİV/AİDS treyninqi keçirilmişdir. Ay ərzində 1696 nəfərə maarifləndirmə işi aparılmışdır.

Hər il mütəmadi xarakter daşıyan tədbirlər keçirən Cəmiyyət bu tarixlə bağlı bir sıra tədbirləri cari ildə də planlaşdıraraq həyata keçirmişdir. Bakıdan digər rayonlara gedən sərnişinlərin AİDS biliklərini orada da yayılması məqsədilə Avtovağzalda və Dəmir Yolu vağzalında, Qızıl Aypara emblemini daşıyan gödəkçələrdə və papaqlarda olan 70 könüllü avtobuslara və qatarlara daxil olaraq HİV/AİDS aid müxtəlif buklet, broşur, kitabarası yaddaş vərəqi, yapışqan və şar paylamaqla yanaşı, şifahi olaraq da xəstəliyə yoluxma yolları barəsində maarifləndirmə işləri aparmışlar. Tədbirin ikinci hissəsinə uyğun olaraq gənc könüllülər şəhərin mərkəzi küçələrində buklet, broşur paylayaraq axşam vaxtlarında Milli Parka gəlib və orada nəzərdə tutulduğu «şam mərasimi» üçün könüllülər HİV/AİDS-in bütün dünyada rəsmi qəbul olunmuş abreviaturunu şamlardan qurub alışdırdıqdan sonra, onları dairəyə alıb Azərbaycanlı **Gənclər AİDS-ə YOX dedilər!** Bu cür tədbirlər Qızıl Aypara Cəmiyyətinin Mingəçevir, Sabirabad, Lənkəran, Sumqayıt, Gəncə Regional Mərkəzləri və digər rayonlarında yüzlərlə gənc könüllünün iştirakı ilə «AİDS-ə qarşı mübarizə» şüarı ilə kampaniyalar həyata keçirilmişdir.

Dekabr ayı ərzində 1 dekabr «Ümumdünya AİDS-lə mübarizə günü» münasibəti ilə 7 Regional Mərkəzdə müxtəlif növ fəaliyyətlər keçirilmişdir (konsert, diskoteka, yürüş, sessiya, rəsm müsabiqəsi, viktorina və s.) Sessiyalarda HİV/AİDS xəstəliyinin tarixi və yayılması haqda statistik mə'lumatlar verilmişdir. HİV və AİDS nə deməkdir terminlər və təriflərdən söhbət açılmışdır. Sonra immun sistemi haqqında ümumi anlayış, HİV infeksiyasının əlamətləri, AİDS xəstəliyinin aşkar edilməsi, AİDS-ə kimlər yoluxa bilər, onun ötürülmə yolları və ötürülmənin qarşısının alınması, HİV-in insan orqanizminə təsiri haqqında geniş mə'lumatlar verilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən çəkilmiş «Özünü qoru» videoklipi nümayiş etdirildi. Daha sonra sessiya iştirakçıları qruplara bölünmüşdü və interaktiv oyunlar və onların müzakirəsi başlanılmışdı. İştirakçılar bu xəstəliyə yoluxma və ondan qorunma yollarını öz rəsmlərində əks etdirmişdir və hər rəsmin prezentasiyası keçirilmişdi. Həmçinin AİDS-lə mübarizə günü və qırmızı lent mövzusunda danışılmışdır, HİV test və HİV/AİDS

zamanı ilk yardım mövzusunda müzakirələr keçirilmişdir, HİV/AİDS xəstəliyi ilə yaşayan insanlar və bu insanlara qarşı diskriminasiyanın azaldılması haqqında danışılmışdır, müxtəlif oyunlar və sorğular keçirilmişdir. Sessiyalarda Azərbaycanda epidemiya ilə bağlı yaranmış vəziyyətdən, yoluxmuş insanların statistik məlumatlar barəsində müzakirələr aparılmışdır. Yerlərdə təlim keçmiş treynerlər hər ay olduğu kimi həmyaşıddan – həmyaşıda layihəsi çərçivəsində müxtəlif təhsil ocaqlarında seminarlar həyata keçirmişlər. Ay ərzində 4450 nəfərə maarifləndirmə işi aparılmışdır.

Eyni zamanda il ərzində Bakı şəhərində Ramana qəsəbəsində yerləşən küçə qızları üçün 34 saylı qapalı tipli xəstəxanasında treynerlərimiz 459 nəfər insan maarifləndirilmişdir.

Treyninq və sessiyaların proqramı:

Treyninq və sessiyalarda HİV/AİDS xəstəliyinin tarixi və dünyada qlobal yayılması haqda statistik mə'lumatlar verilmişdi. HİV və AİDS nə deməkdir? terminlər və təriflərdən söhbət açılmışdır. Sonra immun sistemi haqqında ümumi anlayış, HİV nfeksiyasının əlamətləri, AİDS xəstəliyinin aşkar edilməsi, AİDS-ə kimlər yoluxa bilər, onun ötürülmə yolları və ötürülmənin qarşısının alınması, HİV-in insan orqanizminə təsiri haqqında geniş mə'lumatlar verildi. Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən çəkilmiş «Özünü qoru» videoçarxı nümayiş etdirilmişdir. Daha sonra treyninq iştirakçıları qruplara bölünmüş və interaktiv oyunlar və onların müzakirəsi başlanılmışdır. İştirakçılar bu xəstəliyə yoluxma və ondan qorunma yollarını öz rəsmlərində əks etdirmiş və hər rəsmin prezentasiyası keçirilmişdir. Həmçinin AİDS- lə mübarizə günü və qırmızı lent mövzusunda danışılmış HİV test və HİV/AİDS zamanı ilk yardım mövzusunda müzakirələr keçirilmişdir, HİV/AİDS xəstəliyi ilə yaşayan insanlar və bu insanlara qarşı diskriminasiyanın azaldılması haqqında danışılmışdırdır, müxtəlif oyunlar və sorğular keçirilmişdir. Treyninqdə Azərbaycanda epidemiya ilə bağlı yaranmış vəziyyətdən, yoluxmuş insanların rəsmi və qeyri-rəsmi statistik məlumatlar barəsində, treynerlərdən asılı olan fəaliyyətlərə dair müzakirələr aparılmışdır. Treyninqin sonunda treyninqin qiymətləndirilməsi keçirilmişdir.

Kampaniyaların proqramı:

Əvvəl 2 saatlıq HİV/AİDS haqqında informasiya xarakterli maarifləndirmə işləri aparılmışdır. Keçirilən kampaniyalar region kampaniyaları idi. Bütün Regional Mərkəzlərində regiona daxil olan yerli komitələrdən könüllülər iştirak etmişlər. Hər regionda kampaniyalar könüllülərin yürüşü ilə başlanmış, daha sonra isə əvvəlcədən təyin olunmuş ərazilərdə «Gənclər AİDS-in əleyhinədir» adlı bukletlərin və tibbi qoruyucu vasitələrinin paylanılması ilə davam etdirilmişdir. Daha sonra mövzuya aid rəsm müsabiqəsi və viktorinalar (sual-cavab) həyata keçirilmişdir. Müsabiqədən sonra

rəsmlərin sərgisi keçirilmişdir. Həm rəsm müsabiqəsinin və eyni zamanda viktorinanın qalibləri kiçik hədiyyələrlə Az.QAC tərəfindən mükafatlandırılmışlar. Kampaniyanın iş planına uyğun olaraq, Az QAC tərəfindən çəkilmiş «Özünü qoru» adlı AİDS videoçarx nümayiş etdirilmişdir. Bütün gün ərzində davam etmiş kampaniya geniş konsert proqramı və diskoteka ilə yekunlaşmışdır. Respublika ərazisində fəaliyyət göstərən bir çox QHT-rının əməkdaşları aksiyaya qoşulmuşlar.

## HUMANİTAR DƏYƏRLƏR

İl ərzində Qızıl Ayparanın Sumqayıt, Sabirabad, Lənkəran və Mingəçevir Regional Mərkəzlərində və İsmayıllı, Zaqatala Rayon Komitələrində fəaliyyət göstərən 82 nəfər könüllü üçün humanitar dəyərlər üzrə seminarlar keçirilmişdir.

May ayında keçirilən «Ümumdünya Qızıl Xaç və Qızıl Aypara günü» «İnsan Ləyaqətini Qoruyaq» şüarı ilə Bakı şəhəri Nərimanov rayonunda yerləşən N.Nərimanov adına parkda sorğu kampaniyası keçirilmişdir. Sorğu 305 nəfər arasında keçirilmişdir. Tədbir zamanı iştirakçılara Stiqma, Diskriminasiya, Dözümlülük, Qızıl Xaç və Qızıl Aypara Hərəkatı, Beynəlxalq Humanitar Hüquq və HİV/AİDS haqqında məlumat verilmişdir.

İyul, Avqust aylarında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcmanın İnkişafı proqramı və Gənclər Komitəsinin dəstəyi ilə təşkil olunmuş, Sabirabad rayonunun çadır şəhərciyində yaşayan məcburi köçkün uşaqları, Çeçenistandan olan köçkün uşaqlar və Lənkəran şəhərinin uşaq evində yaşayan uşaqlar üçün 3 yay düşərgəsində toplam 85 nəfər istirahət edən uşaq üçün də stiqmatizasiya və onun ziyanı üzrə bir neçə təlim-məşğələ keçirilmişdir.

Fevral, Noyabr aylarında Qızıl Ayparanın Katibliyinin işçiləri Debat Mərkəzinin əməkdaşlığı ilə Azərbaycan Dövlət Pedoqoji Universiteti, İqtisad Universiteti, Sumqayıt Dövlət Universitetlərindən olan tələbələr üçün toplam 122 nəfərə dəyirmi masa ətrafında stiqma və diskriminasiya mövzusu haqqında müzakirələr aparılmışlar.

Avqust ayında İsmayıllı rayonunda 45 nəfər işçi və könüllü, həmçinin HIV/AIDS xəstəliyinə yoluxmuş 7 nəfərin iştirakı ilə "Gəlin insan ləyaqətinə hörmət edək" şüarı ilə iki günlük piknik təşkil olunmuşdur.

Noyabr ayında Qızıl Aypara tərəfindən Mingəçevir, Sabirabad, İsmayıllı, Zaqatala və Gəncə regionundakı 250 şagird arasında «Sizin üçün humanist olmaq nə deməkdir?" mövzusunda rəsm müsabiqəsi təşkil olunmuşdur.

İl ərzində Qızıl Aypara tərəfindən həyata keçirilmiş xeyirxah işlər müxtəlif telekanallar, vasitəsi ilə  digər KİV vasitəsilə işıqlandırılmışdır.

Mart, İyul aylarında Qızıl Ayparanın İnformasiya şöbəsinin müdiri və Federasiyanın nümayəndəsi Milli Cəmiyyətlərin və Federasiyanın informasiya və yayım nümayəndələri ilə birgə Ankara və Cenevrə şəhərlərində  keçirilən İnformasiyaya dair Beynəlxalq və Regional görüş və təlimdə iştirak etmişlər.

Müxtəlif çap materialları hazırlanmışdır:

| Çap materiallarının növü | Çap materiallarının sayı |
|---|---|
| İllik hesabat 2005 | 1,500 |
| Yapışqan (balaca) | 1,900 |
| Yapışqan (böyük) | 100 |
| Humanitar Dəyərlərə aid Broşur | 1,700 |

Milli Cəmiyyətinin fəaliyyətini əks etdirən 180 məqalə yerli qəzetlərdə dərc olunmuşdu.

Beynəlxalq Federasiyanın VEB səhifəsində 13 nəfər fəal könüllü haqqında məlumat yerləşdirilmişdir. Cəmiyyət tərəfindən keçirilən proqramlar haqqında yeniləşmiş informasiya və keçirilən tədbirlərə dair 51 məqalə www.redcrescent.az internet səifəsinə yerləşdirilmişdir.

## BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN ƏSASLARI VƏ BQX/QAH-NIN FUNDAMENTAL PRİNSİPLƏRİNİN YAYIMI

Fəaliyyət planına əsasən Qızıl Ayparanın Yayım Sektoru Bakı, Sumqayıt, Sabirabad, Lənkəran, Mingəçevir və Gəncə RM-də, Naxçıvan MRK-də  yayım işləri üzrə könüllülər şəbəkəsi yaratmış, təbliğat vasitəsilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti, BQX/QAH, Hərəkatın Fundamental Prinsipləri və Beynəlxalq Humanitar Hüquq haqda bilikləri respublika əhalisi arasında (xüsusilə də təhsil strukturlarında) yaymışdır.

2006-cı ildə Bakı, Sumqayıt, Sabirabad, Lənkəran, Mingəçevir, Gəncə RM-də və Naxçıvan MRK-də Yayım üzrə hər bir RM-də 2 nəfərdən ibarət olan könüllü yayım işinə

təyin olunmuşdur. Bu könüllülər hər ay ərzində öz RM-də yayım işini apararaq Yayım Sektorunun rəhbərinə görülmüş işlərlə bağlı aylıq yazılı hesabatlar təqdim edirlər

2006-cı ildə RM-də hazırlanmış yayım üzrə könüllülərin təcrübə mübadiləsinin aparılması, yayım işlərinin daha da professional şəkildə qurulması, hesabatların düzgün aparılması və s. inzibati işlərin normal şəkildə qurulmasını təmin etmək üçün illik plana əsasən onlarla Cəmiyyətin Katibliyində 2 dəfə 2 günlük görüş keçirilmişdir.

2006-cı il ərzində Bakı şəhərində 2 klinikada QX/QA emblemlərindən sui-istifadə halları aşkar olunmuşdur və klinikaların baş həkimləri ilə danışıqlar aparılmışdır.

Bundan əlavə bu il Yayım Sektorunun rəhbəri tərəfindən Qazax Rayonunun Cəfərli kəndində də ambulator mərkəzə aid olan tibbi avtomaşının üzərində Qızıl Aypara emblemindən düzgün istifadə edilməməsi halı aşkar edilərək dərhal aradan qaldırılmışdır.

2006-cı Qızıl Ayparanın Katibliyində fəaliyyət göstərən bütün əməkdaşlara yayım üzrə seminar keçirilmişdir.

Qızıl Ayparanın Sabirabad RM-nə daxil olan RK sədrlərindən başqa bütün Rayon Komitə sədrlərinə yayım üzrə ətraflı seminar keçirilmişdir.

2006-cı ildə illik plana uyğun olaraq hər 2 aydan bir Cəmiyyətin fəaliyyətlərindən bəhs edən informasiya bülletenləri hazırlanmış, yerli və beynəlxalq, dövlət və qeyri-dövlət təşkilatlarına, ümumiyyətlə, əhaliyə paylanmışdır.

Cəmiyyətin Gənclər Komitəsinin layihəsi əsasında yayım sektoru tərəfindən Bərdə və Füzuli rayonlarında «Gənclər Mərkəz» ləri təşkil edilmişdir.

«Gənclər Mərkəzləri»-nin hazırlanmasında əsas məqsəd cəbhə yaxınlığında yaşayan gənclərin Qızıl Xaç və Qızıl Aypara Hərəkatına qoşulmasını, onların humanitar fəaliyyətlərə cəlb olunması, asudə vaxtlarının səmərəli keçirilməsini və s. sahələrdə olan ehtiyaclarını təmin etməkdir. Həmçinin, mərkəz Az.QAC Bərdə və Füzuli Rayon Komitələri könüllülərinin sayının artmasına da xidmət edəcəkdir..

İstifadəyə verilmiş «Gənclər Mərkəzləri» Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Hərəkatı haqqında informasiya materialları və kompyuter avadanlıqları ilə təchiz olunmuşdur.
«Gənclər Mərkəzləri»-nin reallaşmasında Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) Az.QAC-a yaxından dəstək olmuşdur.

2006-cı ildə illik plana əsasən Cəmiyyətin Gənclər Komitəsinin layihəsi əsasında çeçen uşaqlar, üçün «Yay düşərgəsi» təşkil olunmuşdur.

15 nəfər çeçen yeniyetməsi üçün 1 həftə ərzində həyata keçirilən yay düşərgəsinin əsas məqsədi onlara yay tətillərinin dəniz kənarında keçirilməsi üçün şərait yaratmaq, uşaqların asudə vaxtlarının maraqlı və səmərəli keçirilməsini təmin etmək, onları bir komanda şəklində hərəkət etməyə alışdırmaq olmuşdur.

Gündəliyə uyğun olaraq yeniyetmələr sağlamlıq, gigiyena, HİV/AİDS, ilk yardım, Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Hərəkatı, onun dünyəvi mövqeyi və fəaliyyətləri, Humanitar dəyərlər, Beynəlxalq Humanitar Hüququn əsasları və digər sahələr ətrafında maariflənmişlər.

## BEYNƏLXALQ ƏLAQƏLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyəti 2006-cı ildə də beynəlxalq əlaqələri inkişaf etdirməklə bir çox nailiyyətlər əldə etmişdir. Məhz ötən il ərzində Cəmiyyətin əməkdaşları çoxsaylı beynəlxalq görüşlərdə, seminarlarda, konfranslarda və s. iştirak edərək Cəmiyyəti və Azərbaycan Respublikasını yüksək səviyyədə təmsil etmişlər. Belə ki:

2006-cı il 24 Mart tarixində Türkmənistanın Aşğabad şəhərində Türkmənistan Qızıl Aypara Cəmiyyətinin «80 illik» yubileyi ilə əlaqədar konfransında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcraçı Katibi Elxan Rəhimov iştirak etmişdir.

2006-cı il 20-24 Mart tarixlərində Çilinin Santyaqo şəhərində Ümumdünya Səhiyyə Təşkilatının təşkilatçılığı ilə «Beynəlxalq Qan Donorluğu» ilə bağlı görüşdə, Sağlamlıq və Qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova səfərdə olmuşdur.

2006-cı il 5 - 15 May tarixində İcraçı Katib Elxan Rəhimov və Yayım sektorunun rəhbəri Bayram Vəliyev «Humanitar dəyərlər yayımının həyata keçirilməsi» mövzusunda Makedoniyanın Skopye şəhərində keçirilən görüşdə iştirak etmişlər.

2006-cı il May ayında «Türkiyə, Qafqaz və Orta Asiya Milli Cəmiyyətlərinin anlaşma memorandumunda» iştirak etmək üçün Cəmiyyətin Vitse-Prezidenti Qafar Əsgərzadə və İcmalar üzrə iş sektorunun rəhbəri Elnur Hacıbabayev Türkiyənin Antalya şəhərində səfərdə olmuşlar.

2006-cı ilin May ayında Türkiyyənin Ankara şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Türkiyə Regional Nümayəndəliyi tərəfindən

keçirilən Sağlamlıq işçilərinin görüşündə Sağlamlıq və Qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova və HİV/AİDS proqramının rəhbəri Şaban Şayev iştirak etmişdir.

2006-cı il 20-22 İyun tarixində İsveçrənin Cenevrə şəhərində Beynəlxalq Konfransda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanov, Cəmiyyətin İcraçı Katibi Elxan Rəhimov və İcraçı Katibin müavini Bəylər Talıbov iştirak etmişlər.

2006-cı ilin Avqust ayında Türkiyənin Ankara şəhərində keçirilən «Regional görüşdə» Sağlamlıq və Qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova iştirak etmişdir.

2006-cı il 5-18 Sentyabr tarixlərində Böyük Britaniyanın London şəhərində İngiltərə Qızıl Xaç Cəmiyyətinin təşkilatçılığı ilə fandreyzinq sahəsində «Biliklərin bölüşdürülməsi» mövzusunda geniş tərkibli görüş keçirilmişdir. Bu görüşdə İcraçı Katibin müavini Dilbər İskəndərova və Fandreyzinq proqramının asistenti Ceyhun İsmayılov iştirak etmişlər.
2006-cı il 13-18 Sentyabr tarixlərində «HIV/AİDS və Vərəmə qarşı Avropa Regional Şəbəkəsinin» 10-cu görüşündə iştirak etmək üçün Sağlamlıq və Qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova və HİV/AİDS proqramının rəhbəri Şaban Şayev Norveçin Oslo şəhərində səfərdə olmuşlar.

2006-cı il 14-23 Sentyabr tarixlərində Az.QAC-nin Hesabat sektorunun rəhbəri Pünhan Rəhimov və Cəmiyyətin könüllüləri «Regional Fövqəladə Hallara Hazırlıq və Cavabvermə dəstəsinin» treyninqində iştirak etmək üçün Türkiyənin Ankara şəhərində səfərdə olmuşlar.
2006-cı il 26 oktyabr tarixində Gürcüstanın Tbilisi şəhərində Beynəlxalq QIzıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası tərəfindən təşkil olunmuş Regional görüşdə iştirak etmək üçün Cəmiyyətin İcraçı Katibi Elxan Rəhimov və İcraçı Katibinin müavini Dilbər İsgəndərova səfərdə olmuşlar.

2006-cı ilin Noyabr ayında Fövqəladə Hallara Hazırlıq və Cavabvermə sektorunun rəhbəri Rafael Həsənov Türkiyənin İzmir şəhərində «Fövqəlada Hallara Hazırlıq və cavabvermə» mövzusunda keçirilən treyninqdə iştirak etmişdir.

2006-cı il Noyabr ayında Xorvatiyanın Zaqreb şəhərində «İnsan qaçaqmalçılığına» qarşı görüşdə HİV/AİDS proqramının rəhbəri Şaban Şayev iştirak etmişdir

2006-cı il Dekabr ayının 11-də Polşanın Varşava şəhərində Polşa Qızıl Xaç Cəmiyyəti və Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında «İkitərəfli əməkdaşlıq» çərçivəsində görüşdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanov, İcraçı Katib Elxan Rəhimov və İcraçı Katibin müavini Bəylər Talıbov iştirak etmişlər.

2006-cı ilin Dekabr ayında Türkiyənin Ankara şəhərində «Fövqəladə Hallara Hazırlaq və cavab vermə» və «Vərəmlə mübarizə» mövzuları ətrafında, Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlətlərin iştirakı ilə görüş keçirilmişdir. Görüşdə Fövqəlada Hallara Hazırlıq və Cavab vermə sektorunun rəhbəri Rafael Həsənov və Sağlamlıq və qayğı şöbəsinin müdiri Mətanət Qaraxanova iştirak etmişlər.

2006-cı ildə Beynəlxalq Federasiyanın Ankara regional nümayəndəliyinin Maliyyə, Sağlamlıq, Təşkilatı İnkişaf Üzrə nümayəndələri və BQXK - nın nümayəndələri Azərbaycan Qızıl Aypara Cəmiyyətinə səfər etmişlər.

2006-cı ilin dekabr ayında Türkiyə Qızıl Ayının nümayəndələri Azərbaycan Qızıl Aypara Cəmiyyətinə səfər etmişlər.

## TƏŞ KİLATİ İNKİŞ AF

### Təşkilati İşlər

Fevral ayının 23-24-ü Təşkilat idarəsi tərəfindən Qızıl Ayparanın Sabirabad Regional mərkəzinə daxil olan 12 yerli komitə sədrlərinin və 12 nəfər mühasibin iştirakı ilə 2 günlük seminar keçirilmişdir. Ümumi seminarda 26 nəfər iştirak etmişdir. Seminarda QAC-nin yeni Nizamnaməsinin tələblərinə uyğun fəaliyyətinin qurulması, yeni ilk təşkilatların yaradılması yerli komitələrin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında, və s. məsələlər ətrafında mühazirələr dinlənilmiş, müzakirələr aparılmışdır.

Mart aynın 14-15, Gəncə Regional Mərkəzində və ona daxil olan 12 rayon komitələrin sədrləri və mühasiblərinin iştirakı ilə 2 günlük seminar keçirilmişdir. Seminarda 28 nəfər iştirak etmişdir. Nizamnamə haqqında, yeni Strateji plan, ilk təşkilatların yaradılması, yerli İcra Hakimiyyətləri ilə işin gücləndirilməsi və üzvlərin sayının artırılması haqqında söhbət aparılmışdır. Eyni zamanda 2006-cı ildə yerli komitələrdə keçirilmiş hesabat seçki konfranslarına hazırlıq işləri görülmüşdür.

May ayında təşkilati işlərlə əlaqədar olaraq 2.000 ədəd plakat çap olunmuş və bu plakatlar komitələrə paylamışdır. Bütün plakatlar komitələrin tədbirlərdə istifadə olunur.

İyul ayında Mingəçevir şəhərində 2 günlük seminar keçirilmişdir. Seminarda 26 rayon komitə sədrləri və mühasibləri iştirak etmişlər. Seminarlarda mövzu yeni ilk təşkilatların yaradılması, yerli İcra Hakimiyyətləri ilə sıx əlaqələrin qurulması olmuşdur.

Avqust ayında 2000 ədəd üzvlərin qeydiyyat vərəqələri çap olunmuşdur. Həmin vərəqələr yerli komitələrinə paylanılmış və yerlərdə üzvlərin qeydiyyatı aparılmışdır.

2006-cı ildə təşkilat idarəsinin işçiləri Bakı şəhəri Səhiyyə və Təhsil İdarəsi rəhbərləri ilə görüşlər keçirmiş, səhiyyə və təhsil ocaqlarında Qızıl Ayparanın ilk təşkilatlarını yaradılmasına və üzvlərin sayının artırılmasına dair müzakirələr aparmışlar. Nəticə etibarı ilə, Bakı şəhər Səhiyyə və Təhsil İdarə rəhbərləri Qızıl Aypara Cəmiyyətinə xüsusi məktub göndərilmişlər.

Belə ki, 2006-cı ildə Qızıl Aypara Cəmiyyətinin Respublika üzrə ümumi üzvlərinin sayı 215.348 nəfərə çatmış, eyni zamanda 5.103 ilk təşkilatlar yaradılmışdır.

2005-2006-ci il ərzində üzvlərin sayı 18990 nəfər artmışdır.
2005-2006-cı il ərzində 281 yeni ilk təşkilat yaradılmışdır.

2006-cı ildə iyun, iyul, avqust, sentyabr aylarında Qızıl Aypara Cəmiyyətinin 73 yerli Komitəsində hesabat-seçki konfransları keçirilmiş, yeni rəhbər orqanlar seçilmişdir

## YERLİ KOMİTƏLƏRİN İNKİŞ AFI

-Gəncə, Qazax, Ağcabədi və Füzuli RK-də imkanların qiymətləndirilməsi aparılmış və onun nəticəsi olaraq "İcmalarda ehtiyacların qiymətləndirilməsi", "layihələrin planlaşdırılması və idarə edilməsi", "monitorinq və hesabatlılıq" və "Sosial qayğı" üzrə **20** nəfər işçi və könüllü üçün **4** treyninq keçirilmişdir.

-Həmçinin 1 "fandreyzinq" və 1 "layihələrin planlaşdırılması və idarə edilməsi" üzrə həmin Rayon komitələri üçün treyninqlər keçirilmişdir.

- Gəncə, Qazax, Ağcabədi və Füzuli RK tərəfindən icmalarda «Ümumdünya Qızıl Xaç və Qızıl Aypara günü», «Beynəlxalq Sağlamlıq günü», «Siqaret və TB əleyhinə kampaniya» və tədbirlər keçirilmişdir. Bütün bu tədbirlərdə, ümumilikdə **750** nəfər icma üzvü iştirak etmişdir.
-Qızıl Ayparanın Gəncə, Qazax, İsmayıllı, Lənkəran və Neftçala komitələrinin könüllüləri ilk yardım üzrə **1,110** nəfərə təlim və daha **2,507** nəfər adama isə profilaktik sağlamlıq üzrə təhsil verilmişlər. «Beynəlxalq İlk Yardım Günü»ndə icmalarla **5** ilk yardım kampaniyası keçirilmiş və **5** səhiyyə maarifi kampaniyası təşkil edilmişdir.

-Azərbaycan Qızıl Apara Cəmiyyəti və Polşa Qızıl Xaç Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental prinsiplərinə sadiq qalaraq, İştiraklı İcma İnkişafı

metodu vasitəsilə Yerli Komitələrini imkanlarının gücləndirilməsi layihəsinin təşəbbüsünü irəli sürmüşdür və 2006 cı ilin Sentyabr ayından layihə öz işinə başlamışdır. Bu layihə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin təşkilati inkişafını və Azərbaycanda zavallı insanlara köməklik göstərilməsi məqsədilə humanitar fəaliyyətləri dəstəkləyən bir layihədir. 5 hədəf Yerli Komitə seçilmişdir ki, bunlar da Gəncə, Qazax, İsmayıllı, Lənkəran və Neftçaladır.
-2006-cı il Oktyabr-Noyabr ayları ərzində həmin Yerli Komitə Sədrləri, Sədr müavinləri, mühasib, gənclər koordinatorları və könüllülərin iştirakı ilə ilk-giriş ehtiyacların qiymətləndirilməsi və hesabat-monitorinq treyninq məşğələləri keçirilmişdir. Ümumi 25 nəfər bu treyninqlərdə iştirak etmişdir.

-Həmçinin bu layihə daxilində bütün icmalarda 3 tədbir keçirilmiş və 780 icma üzvü aktiv surətdə iştirak etmişdir.

-Həmçinin layihə çərçivəsində sağlamlığa dair 6000 ədəd buklet çap edilib RK-nə paylanılmışdır.

-Layihə çərçivəsində Neftçala, İsmayıllı və Gəncə komitələrində Gəlir Gətirmə məqsədilə 3 mikro-layihə açılmışdır. Gəncə və Neftçalada internet klublar, İsmayıllıda isə arıçılıq layihəsi işə başlamışdır.

-Neftçala rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə Neftçalada internet klubun açılması ilə əlaqədar Komitəyə yeni ofis sahəsi verilmişdir ki bu da RK-nin fəaliyyətinin daha da yaxşılaşdırılmasına köməklik edəcəkdir.

-Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Federasiyanın birgə keçirdiyi qiymətləndirmə Milli Cəmiyyətin komitə imkanlarının geniş mənzərəsini əks etdirməyə imkan vermişdir. Komitələrin material və texniki imkanları da yaxşılaşmışdır, bu da Qızıl Aypara işçilərinin və könüllülərinin özünə inamını, maraq və motivasiyasını artırmışdır. İnternetə girmək imkanı daha çox könüllüləri komitə fəaliyyətlərinə cəlb etmişdir. Maşınların olması komitələrə müntəzəm olaraq hədəfə götürülmüş kəndlərə səfər etməyə və icma işini axıra kimi başa çatdırmağa imkan vermişdir.

- Gəncə, Qazax, Ağcabədi və Füzuli komitələri könüllülərin idarə edilməsini gücləndirmişlər. Onlar komitə inkişafı işində hər bir könüllünün rolunu təyin etmişlər. Bütün könüllülər məlumat bazasında qeydiyyata alınmışlar.

| Tədbirlərin adı | Cəlb olunanların sayı |
|---|---|
| Ailə planlaşdırılması, HİV/AİDS | 230 |
| Qidalanma Şəxsi gigiyena və sanitariya | 187 |
| İnfeksion xəstəliklər (malyariya, vərəm) | 300 |
| Ümumdünya Qızıl Xaç və Qızıl Aypara günü | 570 |
| Beynəlxalq Sağlamlıq gün | 120 |
| Siqaret və TB əleyhinə kampaniya | 114 |
| **Ümumi** | **1521** |

-Yerli icra hakimiyyətləri ilə əməkdaşlıq yaxşılaşmışdır. Layihədən əvvəl komitələr yalnız ərzaq və dərman preparatlarının bölüşdürülməsi işinə gəlb olunmuşdular. Hazırda onların işi ilk yardım, səhiyyə maarifi və humanitar dəyərlərin yayılması kimi sahələrə gedib çıxmışdır. Komitələr həmçinin, müxtəlif sosial fəaliyyətlərə də başlamışlar. Komitələrdən alınan maliyyə və nəqli hesabatlar da yaxşılaşmışdır. Qızıl Aypara komitələri öz fəaliyyətlərində iştirak edən qadın və gənclərin sayını artıra bilmişlər. Layihənin ilkin mərhələsində təkcə 128 qadın və 23 gənc iştirak edirdi. Layihənin sonunda isə bu rəqəm artmışdır. Belə ki, **700**-dən artıq qadın və **450** gənc profilaktik sağlamlıq, ilk yardım və bacarıqların təlimi sahəsində Qızıl Aypara ilə birgə çalışmışdır.

-10 nəfər könüllü "İcmalarda ehtiyacların qiymətləndirilməsi", 15 nəfər icma könüllüsü "Sağlamlıq üzrə" 15 nəfər RK işçisi "layihələrin planlaşdırılması və idarə edilməsi" və 15 nəfər RK könüllüsü "Sosial qayğı" üzrə 4 təlim keçərək bilik və bacarıqlarını artırmışdılar.

-İcmalarla keçirilən tədbirlərdə ümumilikdə **1.500** icma üzvü aktiv iştirak etmişdir ki, bu da icmaların AzQAC-a olan maraqlarının artırılmasından xəbər verir.

## GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR

-İl ərzində 1120 nəfər modul treyninq kursunu dinləmiş, (Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tarixi; 7 Fundamental Prinsip; Fəaliyyətlər haqqında; Yeni gələn könüllüləri QAC-ın rayon komitəsinin fəaliyyətində iştirak etməyi və iş görməyə həvəsləndirmək) 42 nəfər Mingəçevir, Sumqayıt, Lənkəran, Sabirabad Gəncə RM-nin könüllülərini isə

modul treyninqlə əlaqədar treyner kimi hazırlanmışdır. Həmin treynerlər rayonlarda əhali üçün treyninqlər həyata keçirirlər.

-7 regional mərkəzin gənclər koordinatorları, icma proqramı çərçivəsində fəaliyyət göstərən könüllülərə və həmin rayonun gənclər üzrə təlimatçıları və könüllülər üçün ümümilikdə, 183 nəfərə lider treyninq kursları keçirmişdir.

Eyni zamanda Sumqayıt, Lənkəran, Mingəçevir, Gəncə, Sabirabad RM-nin rayon komitələrinin könüllüləri üçün Minqəcevir RM-də 27-29\07-06 tarixlərində 3 günlük təhsil yönümlü düşərgə keçirilmişdir. Düşərgədə 50 nəfər könüllü iştirak etmişdir.

- İl ərzində Sumqayıt, Lənkəran, Gəncə, Mingəçevir rayonlarının uşaq evlərində fəaliyyət göstərən 62 nəfər könüllü üçün sosial treyninq keçirilmişdir.
Proqrama əsasən, 7 RM-in və hər bir mərkəzin 4 məktəbində hər məktəbdə 25 şagird olmaqla 700 nəfər məktəbli üçün «İlk yardım» və hərəkatın yayımı haqqında 3 ay ərzində təlimlər aparılmışdır. Təlimin nəticəsi olaraq 3 mərhələdən ibarət olaraq yarış keçirilmiş, bu yarışlar 1-ci mərhələdə rayonda məktəblərarası, 2-ci mərhələdə RM arasında, 3-cü mərhələdə Bakıda yekun yarışlar keçirilmiş, Yarışda qalib gələn şagirdlər mükafatlandırılmışlar.

-Gəncə- RM-də 14-15 aprel tarixlərində məktəblilər və tələbələr üçün HİV/AİDS, sağlamlıq, humanitar dəyərlər, ilk yardım, liderlik, fövqəladə hallara hazırlıq, sosial iş kimi məşğələlər keçirilərək prezentasiyalar edilmişdir. Ümumilikdə, bu tədbirlərdə 534 nəfər iştirak etmişdir.

**Mərkəzi və Regional Gənc Könüllülər Şurasının görüşləri**

İl ərzində 3 mərkəzi gənc könüllülər şurasının görüşü keçirilmişdir. Sumqayıt, Gəncə, Lənkəran, Bakı, Sabirabad RM-nin hər birində gənc könüllülər şuralarının 2 regional görüşu keçirilmişdir. Şuralarda müzakirə olunmuş mövzular: Rayonlarda kiçik sosial layihələrin həyata keçirilməsi, LiderTreyninq Modulunun yeniləşdirilməsi və treyninq sistemlərin yaradılması, İcmalarla iş, Könüllülərin elektron qeydiyyatı, Lənkəran və Gəncə RM-də «Məktəbə qaydış pilot proqramının» həyata keçirilməsi.
Hal-hazırda elektron qeydiyyatı Baş Qərargahın Gənclər şöbəsində, Sumqayıt, Zaqatala, Minqəçevir, İsmayıllı, Şamaxı, Gəncə RM-də yaradılıb. Qalan rayon və regionlarda şöbə tərəfindən hazırlanmış elektron qeydiyyatı blanklarından istifadə olunur. Ancaq gələcəkdə nəzərdə tutulub ki, regionlarda elektron qeydiyyatlarından istifadə olunsun. Hər ay rayon, şəhər komitələrindən könüllülərin qeydiyyatının məlumatı şöbəyə çatdırılaraq elektron qeydiyyatında qeyd olunur. Bu da könüllülərin hansı proqramlarda fəaliyyət göstərilməsinə və koordinasiya olunmasına dəqiqlik gətirir.

- 2005 ci ildə qeydiyyatdan keçən könüllülərin sayı 1110 nəfər olmuşdur 2006-cı ildə könüllülərin sayı 505 nəfər artaraq 1615 nəfərə çatmışdır.

- Şağan, Lənkəran, Sumqayıt, Gəncə, Mingəçevir rayon və şəhərlərdə yerləşən kimsəsiz uşaq evlərində və Sumqayıtda evlərdə yaşayan əlil uşaqlarla könüllülər tərəfindən sosial işlər aparılmışdır. Həmin sosial işlər aşağıdakılardır: uşaqların gəzintisi, rəsm, toxuculuq, idman, musiqi, dərslərinə kömək, təsviri incəsənət və s.

Lənkəran uşaq evində 170 nəfər kimsəsiz uşaq üçün 15 günlük yay istirahət düşərgəsi keçirilmişdir. Həmin düşərgənin keçirilməsində maliyyə dəstəy göstərən edən BQX və QA Federasiyası olmuşdur. Düşərgənin keçirilməsində Az. QAC-ın Lənkəran RK-nin 15 nəfər könüllüsüi və əməkdaşı fəaliyyət göstərmişdir. Burada uşaqlar üçün gəzintilər, kukla teatırı, kinoteatr, Lənkəran rayonuna yaxın olan tarixi muzeylərə baxış, Park, kafelər, müəyyən əyləncəli atraksionlara ekuskursiya edilmişdir..

1 İyun «Beynəlxalq Uşaqların Müdafiəsi günü» ilə əlaqədar Lənkəran, Şağan, Sumqayıt uşaq evlərində və çətin tərbiyə olunan uşaq koloniyasında tədbirlər keçirilmişdir.

Proqram çərçivəsində Sumqayıtda 30 nəfər əlil uşaq üçün avqust ayında dəniz kənarında 1 günlük istirahət təşkil edilmişdir.

15 Sentyabr «Bilik günü» ilə əlaqədar Lənkəran rayon uşaq evində yaşayan 170 nəfər uşaq üçün tədbir keçirilmişdir. Tədbir kompaniya xarakteri daşımışdır. Tədbirdə əl işlərindən ibarət sərgi açılmış, viktorina keçirilmiş və konsert verilmişdir. Sonda 170 nəfərə yemək süfrəsi açılmış, 40 məktəbliyə hədiyyələr bağışlanmışdır.

Proqram çərçivəsində 3 Dekabr «Əlillər günü» ilə əlaqədar Sumqayıtda 30 nəfər əlil uşaq üçün Şağan qəsəbəsində yerləşən 3 №li əlil uşaq evində 90 nəfər üçün, tədbir keçirilmişdir. Tədbirdə konsert proqramı, sərgi, sonda uşaqlara süfrə açılıb hədiyyələr təqdim edilmişdir.

- İl ərzində, Könüllülərin göstərdiyi fəaliyyətlərin yaxşı koordinasiya olunması,
Gəncləri bir yerə yığmaq, pis vərdişlərdən yayındırmaq, onların fikirlərinin bölüşməsi üçün şərait yaratmaq məqsədilə İmişli, Əli-Bayramlı, İsmayıllı rayon komitələrində gənclər klubları yaradılmışdır.

- 5 Dekabr «Beynəlxalq Könüllülər günü» ilə əlaqədar bütün regionallarda tədbirlər keçirilmişdir. Tədbirlərdə regional mərkəzlərin və rayon komitələrin könüllüləri, Mərkəzi Gənc Könüllülərin Şuralarının üzvləri, Regional Mərkəzlərin gənclər koordinatorları və s. ümumilikdə 200 nəfər iştirak etmişdir.

## GƏNCLƏR KOMİTƏSİ

2006-cı il martin 3-də Gənclər Komitəsinin təşəbbüsü ilə Cəmiyyətin yaradılmasının 86 illiyi münasibətilə Bakı şəhəri Bilgəh qəsəbəsində yerləşən əmək və müharibə veteranları üçün ianə qutularından yığılan vəsait hesabına Qocalar Pansionatında tədbir keçirilmişdir.

2006-cı il martın 28-i Az.QAC-nin Gənclər Komitəsi Bakı şəhərində yerləşən Ümid yeri uşaq sığınacağında uşaqlar üçün ekologiya, coğrafiya və gigiyenik normalara dair biliklərin inkişaf etdirilməsi üzrə layihə davam etdirmişdir.

Tədbirdə Qocalar Pansionatının 150 sakininə (50 nəfər yataq xəstəsi) Komitənin həyata keçirdiyi geyim aksiyasından toplanmış müxtəlif isti geyimlər, nahar və şirniyyat süfrəsi açılmış, musiqili proqramı ərməğan olunmuşdur.

2006-cı il martın 9-da Cəmiyyətinin yaradılmasının 86 illiyi münasibətilə Gənclər Komitəsinin təşkilatçılığı ilə Bakı şəhəri Xətai rayonunda yerləşən Tərbiyə Müəssisəsində tərbiyə olunan gənclər və Cəmiyyətin könüllüləri arasında voleybol yarışı keçirilmişdir. Məqsəd tərbiyə olunan gənclərin asudə vaxtlarının maraqlı və səmərəli keçməsindən ibarət olmuşdur. Qalib və məğlub komandalar Qızıl Ayparanın Gənclər Komitəsi tərəfindən hədiyyələr verilmişdir.

2006-cı il martın 18-da Gənclər Komitəsi və Xətai Rayon Komitəsi ilə birgə Bakı şəhəri Xətai rayonunda yerləşən Tərbiyə müəssisəsində tərbiyə alan 60 gənc üçün «Novruz» şənliyi keçirmişdir. Şənliyə populyar müğənni Tünzalə Ağayeva, «Azəri Star» müsabiqəsinin iştirakçısı Cavid Qafarov, Cəmiyyətin könüllüləri olan «Qanun» gənc rep qrupu dəvət olunaraq, musiqi töhfələri ilə iştirakçıları sevindirmişlər.

Tədbirin sonunda Cəmiyyətin həyata keçirdiyi proqramlarla bağlı çoxlu sayda maarifləndirmə və informasiya materialları paylanmışdır.

2006-cı il aprelin 7-i «Ümumdunya Sağlamlıq» günü ilə əlaqədar Gənclər Komitəsi Cəmiyyətin «Sağlamlıq və qayğı» şöbəsi ilə birgə aksiya təşkil etmişdir. Aksiya zamanı Bakı şəhərinin mərkəzi küçələrində «Sağlıamlıq» mövzusu ilə bağlı informasiya materialları paylanmışdır.

2006-cı il mayın 9-da Gənclər Komitəsi 8 may «Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərakatı günü» ilə əlaqədar Bakı şəhəri Sabunçu rayonu ərazisində yerləşən 11№ İnternatda yaşayan kimsəsiz və əqli cəhətdən zəif olan uşaqlara baş çəkmişlər. Uşaqlar üçün süfrə açılmış, onların əhval-ruhiyyələrinin yaxşılaşması, əylənməsi məqsədilə şənlik proqramı təqdim olmuşdur.

2006-cı il mayın 21-də tarixdə Azərbaycanda QİÇS-dən vəfat edənlərin xatirə günü il əlaqədar Gənclər Komitəsi, Cəmiyyətin Sağlamlıq və Qayğı Şöbəsi və QİÇS-lə Mübarizə İctimai Birliyi ilə birgə aksiya təşkil etmişdir. Aksiya Bakı şəhərində, Milli Parkda keçirilmişdir. Aksiyanın məqsədi əhali arasında HİV/QİÇS haqqında məlumat

səviyyəsini öyrənmək, əhalinin HİV-ə yoluxmuş insanlara münasibətinin hansı səviyyədə olmasını öyrənməkdən ibarət olmuşdur.

Ümumilikdə, 118 nəfər arasında sorğular aparmış, QİÇS-dən vəfat edənlərin xatirəsini yad etmək məqsədilə QİÇS-ə dair qəbul olunmuş emblem, yəni qırmızı lenti əks etdirən şamlar yerdən düzülərək yandırılmışdır.

2006-cı il iyunun 17-də Gənclər Komitəsi Cəmiyyətin Milli Elmlər Akademiyası Komitəsi ilə birgə Bakı şəhəri Suraxanı rayonu ərazisində yerləşən 7 № internat məktəbində məskunlaşmış, müxtəlif yaşlarda olan əqli cəhətdən qüsurlu 90 uşaq üçün tədbir həyata keçirilmişdir. Əsas məqsəd, internat məktəbində yaşayan, valideyn nəvazişindən məhrum olan, ayparaçıların diqqətindən kənarda olmayan zavallı uşaqlara bir daha qayğı göstərməkdən ibarət olmuşdur. Uşaqları üçün nahar və şirniyyat süfrəsi açılmış, əyləncəli şənlik proqramı təşkil olunmuşdur. Əyləncəli proqramda Cəmiyyətin könüllüsü Tünzalə Ağayevə, və «Qanun» rep qrupu iştirak edərək gözəl musiqi nömrələri ilə uşaqların qəlbinə yol tapmışlar.

2006-cı il 08-15 iyul tarixlərində Gənclər Komitəsi Bakı şəhəri Mərdəkan kəndində bağ evində 15 nəfər Çeçen yeniyetməsi üçün yay düşərgəsi həyata keçirmişdir. Tədbirin məqsədi yeniyetmələrin yay tətillərinin dəniz kənarında keçirilməsi üçün şərait yaratmaq, uşaqların asudə vaxtlarının maraqlı və səmərəli keçirilməsini təmin etmək, onları bir komanda şəklində hərəkət etməyə alışdırmaq olmuşdur. Düşərgənin gündəliyinə uyğun olaraq yeniyetmələrə sağlamlıq, gigiyena, HİV/AİDS, ilk yardım, Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Hərəkatı, onun dünyəvi mövqeyi və fəaliyyətləri, Humanitar dəyərlər, Beynəlxalq Humanitar Hüququn əsasları və digər sahələr ətrafında maarifləndirmə işləri də aparılmışdır.

2006-cı il sentyabrın 15-də «Bilik Günü» ilə əlaqədar Gənclər Komitəsi Xətai Rayonunda yerləşən tərbiyə müəssisəsində, islah olunan 53 yeniyetmə məhbus üçün tədbir keçirmişdir. Tədbir zamanı musiqili əyləncəli proqram təşkil olunmuş, Bakı Payızı 2000» müsabiqəsinin iştirakçısı, Cəmiyyətin könüllüsü Fuad Mirzəyev «Qanun» rep qrupu tədbir təşkilatçıları ilə birlikdə əylənərək yeniyetmələri feyziyab etmişlər.

2006-cı il 16-17 oktyabr tarixlərdə Gənclər Komitəsinin cəbhə xəttinə yaxın olan Füzuli rayonunun Əhmədbəyli kəndində və Bərdə şəhərində yeni Gənclər Mərkəzlərinin açılış mərasimi keçirilmişdir. Gənclər Mərkəzlərinin əsas məqsədi cəbhə yaxınlığında yaşayan gənclərin də, digər gənclər kimi Qızıl Xaç və Qızıl Aypara Hərəkatına qoşulmasını, onların humanitar fəaliyyətlərə cəlb olunması, asudə vaxtlarının səmərəli keçirilməsini və s. sahələrdə olan ehtiyaclarını təmin etməkdən ibarət olmuşdur. Yeni istifadəyə verilmiş Gənclər Mərkəzləri BQX/QAH-ı sahəsində informasiya materialları və kompyuter avadanlıqları ilə təchiz olunmuşdur.

2006-cı il oktyabrın 24-də müqəddəs Ramazan bayramı münasibətilə Gənclər Komitəsi Bakı şəhəri Mərdəkan qəsəbəsində yerləşən Müalicə-proflaktika

sanatoriyasında məskunlaşmış zavallı kateqoriyadan olan 92 nəfər ahıl insan üçün bayram tədbiri həyata keçirmişdir.

Tədbirin məqsədi ahıl insanlara diqqət və qayğı, göstərmək qismən də olsa onların problemlərinin azaldılması istiqamətində, Cəmiyyət tərəfindən verilən əməli töfhələr olmuşdur.

Tədbirdə ahıl insanlar üçün bayram süfrəsi və rəngarəng müsiqi proqrami təşkil olunmuş, Komitənin zavallı insanlar üçün həyata keçirdiyi nimdaş paltarların yığılması aksiyasından toplanmış bağlamalar onlara təqdim olunmuşdur.

2006-cı il noyabrın 20-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti (Qızıl Aypara) Gənclər Komitəsinin I Hesabat-seçki Konfransı keçirilmişdir. Konfrans Bakı şəhəri Azərbaycan Texniki Universitetinin böyük iclas zalında baş tutmuşdur.

Konfransın məqsədi ötən 2 il ərzində Gənclər Komitəsinin gördüyü işlər haqda Respublikanın bütün regionlarından dəvət olunmuş nümayəndələrə hesabat məruzəsi təqdim etmək, komitənin əsasnaməsini təsdiq etmək, komitəyə sədr, sədr müavinlərini, idarəetmə şurasını, rəyasət heyətini və maliyyə komissiyasını seçməkdən ibarət olmuşdur.

Konfrans zamanı Komitənin seçkili orqanları seçilmiş və Komitənin əsasnaməsi təsdiq edilmişdir.

## MİNALARA QARŞI MÜBARİZƏ

### «Təhlükəsiz Oyun Meydançaları»

Fəaliyyət planına əsasən Qızıl Ayparanın TOM layihəsi 2006-cı ildə 10 cəbhəyanı kənddə oyun meydançası, 7 kənddə isə minalar əleyhinə icma təşəbbüsləri həyata keçirilmişdir. (İcma təşəbbüsləri-minalar əleyhinə kənd icması tərəfindən verilmiş təşəbbüsləri qiymətləndirərək buna kiçik qrantların ayrılması)

Bundan əlavə layihə həyata keçirilən zaman mina üzrə maarifləndirmə işləri də aparılmışdır.

2006-cı ildə Qızıl Ayparaya Qazax, Tovuz, Gədəbəy, Ağdam, Ağcabədi, Goranboy, Füzuli, Tərtər və Xanlar rayonlarının cəbhəyanı mina təhlükəli kəndlərində ümumilikdə, TOM layihəsi üçün 34 təklif daxil olmuşdur.

Bu təkliflər layihənin Qızıl Ayparadakı koordinatoru və BQXK-nin layihəyə cavabdeh məsul şəxsləri ilə birgə araşdırılaraq, müzakirə edilmiş, bununla əlaqədar təklif olunan bütün kəndlərə səfərlər edilmiş və qiymətləndirmə aparılaraq sonda TOM üçün 10, İcma Təşəbbüsləri üçün isə 7 daha çox mina təhlükəli kənd seçilmişdir. (kəndlərin

seçimi haqda mütəmadi görüşlərdə ANAMA və AzCBL təşkilatlarına da məlumatlar verilmişdir)

2006-cı ildə seçilmiş mina və MPQ təhlükəli kəndlər olan Qazax rayonunun Fərəhli kəndi (TOM), Cəfərli kəndi (icma təşəbbüsü), Tovuz rayonunun Ağdam kəndi (TOM), Gədəbəy rayonunun Qaravəlilər, Göyəlli kəndləri (TOM), Ağdam rayonunun Mirəşelli, Çəmənli kəndləri (TOM), Ağcabədi rayonunun Kürdlər kəndi (TOM), Sarvanlar kəndi (icma təşəbbüsü), Goranboy rayonunun Tapqaraqoyunlu kəndi (TOM), Qarqucaq kəndi (icma təşəbbüsü), Fizuli rayonunun Aşağı Kürdmahmudlu, Əhmədallar kəndləri (TOM), Dilağarda, Yuxarı Kürdmahmudlu, Gecəgözlü kəndləri (icma təşəbbüsləri) layihəyə daxil olmuşlar və həmin kəndlərdə təhlükəsiz oyun meydançası tiklmişdir.

Ümumilikdə 2006-cı il ərzində 10 TOM istifadəyə verilmişdir.

İl ərzində Qızıl Ayparanın mina fəaliyyətlərinə məsul əməkdaşı (TOM layihəsinin koordinatoru) mütəmadi olaraq Azərbaycanda mina fəaliyyətləri ilə məşğul olan digər tərəfdaş təşkilatların nümayəndələri ilə görüşlər keçirərək, aparılan işlərlə bağlı müzakirələrə aktiv qoşulmuşdur. (BQXK, ANAMA, AzCBL, UNİCEF və s.)

## HUMANİTAR YARDIM

Azərbaycan QAC Nizamnaməsinə əsaslanıb, Cəmiyyətin imkanlarını və insanlığın gücünü səfərbər edərək, yardıma ehtiyacı olan ahıl, tənha – xəstə, qaçqın və köçkün ailələrə, az təminatlı və təbii fəlakətlərdən zərər çəkmiş zavallı insanlara müxtəlif formada köməklik göstərmək;

Azərbaycan QAC Katibliyinə çoxlu sayda ərizə, telefon zəngləri və müxtəlif müraciətlər daxil olur. Milli Cəmiyyət tərəfindən həmişə olduğu kimi, 2006-cı ildə də müraciətlərə fərdi qaydada baxılmış, hər bir müraciət barədə müvafiq qərar qəbul edilmişdir.
Azərbaycan QAC Prezidenti cənab N. Aslanovun təsdiq etdiyi qrafikə uyğun olraq hər çərşənbə günü saat 15.00-dən 18.00 kimi Cəmiyyətin rəhbərliyinin və humanitar yardım şöbəsinin əməkdaşının iştirakı ilə yardıma ehtiyacı olan az təminatlı insanların qəbulunu təşkil edilmişdir. Zavallı insanlara Cəmiyyətin İanə qutularından toplanan vəsait və eyni zamanda Azərbaycan Qızıl Aypara Cəmiyyətin Prezidenti cənab Novruz Aslanovun səxsi vəsaiti hesabına yardım olunur.

**Göstərilənlərdən əlavə 2006-cı ildə BHT tərəfindən edilmiş yardımlar:** ƏlavəNo1

| № | Regionların adı | Yardım olunanların sayı (nəfər) | | | | Məbləğ (AZN) |
|---|---|---|---|---|---|---|
| | | Qaçqın | Məcburi köçkün | Yerli aztəminatlı | Cəmi | |
| 1 | Bakı | 579 | 1326 | 9570 | 11475 | 40 700,00 |
| 2 | Sumqayıt | 665 | 174 | 1568 | 2407 | 6 401,00 |
| 3 | Mingəçevir | 210 | 242 | 2261 | 2713 | 13 436,00 |
| 4 | Gəncə | 360 | 480 | 470 | 1310 | 10 040,00 |
| 5 | Lənkəran | 18 | 31 | 1321 | 1370 | 5 690,00 |
| 6 | Sabirabad | 52 | 82 | 1076 | 1210 | 6 340,00 |
| 7 | Qarabağ | 22 | 978 | 12 | 1012 | 2 320,00 |
| 8 | Naxçıvan | 12 | 20 | 180 | 212 | 5 346,00 |
| *CƏMİ* | | *1339* | *3333* | *16458* | *21 709* | *90 273,00* |

ƏlavƏ№2

| Humanitar yardım mənbəyi | Humanitar yardımın növü | Əhalinin kateqoriyaları | Yardım göstərilən insanların sayı | Məbləğ (AZN) |
|---|---|---|---|---|
| İanə qutularından | Ərzaq, paltar, dərman. və.s. | Tənha qocalar, Xroniki xəstələr, Aztəminatlı ailələr. | 1181 | 4.330,00 |
| BQX və QA Cəmiyyətləri Federasiyası və digər gəlirlər hesabına | Məişət avadanlıqları, yataq dəstləri, gigenik dəstlər, mətbəx ləvazimatları və.s | Fövqəladə hallar zamanı zərər çəkmiş insanlar | 1054 | 27.486,00 |
| QAC Rayon Komitələrinin üzvülük haqqı və müxtəlif mənbələrdən daxil olan yardımlar hesabına | Ərzaq, dərman, məktəbli ləvazimatları, məişət avadanlıqları, yataq dəstləri və.s | Tənha qocalar, xroniki xəstələr, aztəminatlı ailələr, qaçqın və məcburi köçkünlər | 21709 | 90.273,00 |
| | | Cəmi: | 23944 | 122.089,00 |

Cəmiyyətin missiyasına aidiyyatı olan zavallı insanların rayonlar üzrə sayının müəyyənləşdirilməsi və siyahıların tərtibi işi davam etdirilmişdir.
Respublikada fəaliyyət göstərən müxtəlif humanitar və özəl təşkilatlarla əməkdaşlıq barədə işlər aparılmışdır.

**Naliyyətlər.** Əlavə 1 və 2-də göstərilmişdir.

1. Humanitar yardım məqsədi ilə lazım olan maliyyə vəsaitinin kifayət qədər olmaması.
2. Daxil olan ərizə, şikayət və digər müraciətlərin yerlərdə yoxlanmasını təmin etmək məqsədi ilə nəqliyyat xərclərinin nəzərdə tutulmaması.
3. Yerli komitə rəhbərlərinin və Regional Mərkəz koordinatorlarının böyük əksəriyyətinin icra məsuliyyətinin aşağı olması.

Birləşmiş Ərəb Əmirlikləri QAC ilə Azərbaycan QAC arasında qarşılıqlı əməkdaşlıq çərçivəsində fevral ayının 21-23-də, Sabirabad rayonu «Qalaqayın», Saatlı rayonu «1№-li Molday» və «2№-li Qaranur», Bərdə rayonu «Ərəb-1», «Ərəb-2» və «Türk Qızıl Ay» və Ağcabədi rayonu «Laçın qış yataqlar» ında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinə 104000$ və ya

95680AZN məbləğində zəruri humanitar yardım göstərilmişdir.(3500 nəfər)
«UMCOR» BHT tərəfindən Veteranlar günü (9 may) münasibəti ilə 2808 AZN dəyərində 260 ədəd gigiyenik dəst ayrılmış və tədbir zamanı veteranlara paylanmışdır.

«COUNTERPART İntenasional» Beynəlxalq Humanitar Təşkilatın Azərbaycandakı Nümayəndəliyi tərəfindən may ayında 100 bağlama (4500kq) işlənmiş paltar ayrılmış və 18 rayon komitəsində 750 aztəminatlı ailələrə paylanılmışdır.

## AXTARIŞ XİDMƏTİ

İl ərzində aşağıdakı fəaliyyətlər mütəmadi olaraq həyata keçirilmişdir:

- Mütəmadi olaraq ərizəçilərin qəbulu, - İİ Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı , - Miqrasiya ilə bağlı axtarış, - Aliment ödəməyənlərin axtarışı
- Axtarış və sosial problemlərin həlli üçün hüquqi məsləhətlərin verilməsi

İl ərzində, sənədlərin axtarışı ilə bağlı sorğular daxil olan zaman biz məsul orqanlara müraciət edir və ya onların rəhbərləri ilə görüşürük.

Rüb ərzində ayda 2 dəfə «Vışka» qəzetinin baş redaktoru ilə görüşlər keçirilmişdir. Onların göstərdiyi köməklik nəticəsində 4 axtarılan şəxs tapılmış və onlarla telefon əlaqəsi yaradılmışdır.

«Ümüd» uşaq evində AzQAC-nin rəhbərliyi və İnformasiya və Beynəlxalq Əlaqələr şöbəsinin Yayım sektorunun iştirakı ilə 22 mart 2006-cı il tarixində aksiya keçirilmişdir. Bu aksiyadan sonra müyyən edilmişdir ki, uşaq evində digər ölkələrdən gələn uşaqların doğum haqqında şəhadətmamələri itirilmişdir. «Ümüd» uşaq evinin direktoru ilə görüş keçirilmiş və bu 6 uşağın sənədlərinin bərpa edilməsi üçün AX-nin sorğu blankları doldurulmuşdur.

**KİV ilə əməkdaşlıq**

2006-cı il ərzində **«Vışka»** qəzetində (18) **və «Zerkalo» qəzetində** (1) AX-nin fəaliyyətini işıqlandıran məqalələr çap edilmişdir.

2006-cı ilin 1-ci rübü ərzində **hər həftənin 2-ci günü** saat 9:00 **«Space» telekanalında AX-nin** fəaliyyəti barədə məlumat verilmişdir.

APA informasiya agentliyi tərəfindən AX-nin fəaliyyəti barədə 2 məqalə çapa verilmişdir.

AX-nin rəhbəri «Kaspiy» qəzetinin müxbirinə müzahibə vermişdir.
Həmçinin, «Birja plyus» qəzetində 1 məqəla çap edilmişdir.

Dekabr ayında Dövlət teleradiosunda AX-nin fəaliyyətinə dair 30 dəqiqəlik veriliş həsr edilmişdir.

Ailə əlaqələrinin bərpasında insanlara yardımçı olan, Rusiyanın «ORT» telekanalında yayımlanan «Jdi menya» verilişi ilə sıx əməkdaşlığımız davam etdirilmişdir.

**Treyninq / seminarlar**

İl ərzində hər ayın axırında könüllülər üçün seminar keçirilmişdir. Seminar Azərbaycan Qızıl Aypara Cəmiyyətininin «baş ofisində», Konfrans Zalında keçirilirmişdir. Seminarlarda 79 könüllü iştirak etmişdir.

21 və 22 sentyabr tarixlərində 25 rayon (şəhər) komitəsi üçün 2 günlük seminar keçirilmişdir. Seminarın 1-ci günü AX-nin fəaliyyəti, 2-ci günü FH zamanı AX-nin fəaliyyəti mövzusuna həsr edilmişdir. Seminarda Sabirabad, Gəncə və Bakı RM-nin sədrləri iştirak etmişlər. Cəmi seminarda 25 nəfər iştirak etmişdir.

İnformasiya yayımı

Oktyabr ayında 1000 ədəd plakat çap edilmiş və bütün RM, RK-nə paylanmışdır.

Həmçinin, 800 ədəd buklet çap edilmiş, onlardan 100 ədədi rus dilində, 700 ədədi Azərbaycan dilindədir.

2006-cı il ərzində daxil olmuş sorğular – 218

Azərbaycan daxili: - 81

Miqrasiyaya dair axtarış – 44

İİ Dünya müharibəsi zamanı İtkin düşənlərin axtarışı – 5

Münaqişə zamanı itgin düşənlərin axtarışı – 9

İİ Dünya müharibəsinə dair sənədlərin axtarışı – 5

Aliment – 1

Dağlıq Qarabağda axtarışa dair – 2 sənəd BQXK-nə göndərlib

Münaqişə ilə bağlı sənədlərin axtarışı – 7

Miqrasiyaya dair sənədlərin axtarışı – 5

Xaricdə:

Açılmış işlər: - 137

Miqrasiyaya dair – 100

İİ Dünya müharibəsi zamanı İtkin düşənlərin axtarışı – 21

Münaqişə nəticəsində itgin düşənlərin axtarışı – 1

İİ Dünya müharibəsinə dair sənədlərin axtarışı – 4

Münaqişə ilə bağlı sənədlərin axtarışı - 3

Miqrasiyaya dair sənədlərin axtarışı - 5

Repressiya nəticəsində itgin düşənlərin axtarışı - 1

Ailə məktubu - 2

**2006-cı il ərzində bağlı işlər - 226**

**Azərbaycan daxili: 76**

Miqrasiya nəticəsində itgin düşənlərin axtarışı - 24 (mənfi), 34 (müsbət)

Aliment - 1 (müsbət), 1 (mənfi)

Münaqişə nəticəsində itgin düşənlərin axtarışı - 10 (mənfi)

Dağlıq Qarabağda axtarışa dair - 2 sənəd BQXK-nə göndərlib

Miqrasiyaya dair sənədlərin axtarışı - 1 (müsbət), 2 (mənfi)

Münaqişə ilə bağlı sənədlərin axtarışı - 1(mənfi)

Daxil olan ailə məktubu - 4

Qaytarılıb - 1

**Xaricdə: 148**

Miqrasiyaya nəticəsində itgin düşənlərin axtarışı - 48 (mənfi), 23 (müsbət)

İİ Dünya müharibəsi zamanı İtkin düşənlərin axtarışı - 47 (mənfi), 3 (müsbət)

Münaqişə nəticəsində itgin düşənlərin axtarışı - 1 (müsbət), 3 (mənfi)

Miqrasiyaya dair sənədlərin axtarışı - 1 (müsbət)

İİ Dünya müharibəsinə dair sənədlərin axtarışı 2 (müsbət), 12 (mənfi)

Münaqişə ilə bağlı sənədlərin axtarışı - 2 (mənfi), 1(müsbət)

Evakuasiyaya dair - 2 (mənfi)

Repressiyaya dair - 1 (müsbət)

Ailənin bərpasına dair - 1 (müsbət)

Müdafiə - 1 (mənfi)

Göndərilən ailə məktubu - 17

*Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Axtarış Xidmətinin birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları:*

*a) Daxili İşlər Nazirliyi*
*b) Dövlət Təhlükəsizlik Nazirliyi*
*v) Nazirlər Kabineti nəzdində Dövlət Arxivi İdarəsi*

*AzQAC və FHN-yi arasında imzalanmış memorandumda Axtarış Xidmətinin vəzifə və funksiyaları geyd olunmuşdur.*

## MALİYYƏ HESABATI

### Gəlirlər

Azərbaycan QAC-nin 2006-cı ildəki gəlirləri 926,0 min. manat təşkil edir.

Əvvəlki illərdə olduğu kimi, alınan gəlirlərin çox hissəsi, 576,0 min. manat və yaxud 62,2% xarici donorların maliyyə dəstəyindən və Dövlət büdcəsindən alınan vəsaitdən ibarətdir. Qalan 350,0 min. manat və yaxud 37,8% yerli gəlirlərdən və üzvlük haqlarından ibarətdir (məlumatlar yeni Azərbaycan manatı ilə göstərilmişdir).

2006-cı ildə «Quş gripi» ilə əlaqədar Azərbaycan QAC-ın gəlir gətirmə sahələrindən gəlirlər olmamışdır.

2006-cı ildə Az QAC-ın gəlirlərinin tərkibi aşağıda göstərildiyi kimi olmuşdur:

1. 352,9 min. manat və yaxud umumi gəlirlərin 38,1%-i Beynəlxalq Federasiyanın vəsaitindən;
2. 59,7 min. manat və yaxud umumi gəlirlərin 6,4%-i Beynəlxalq QXK-nin vəsaitindən
3. 84,5 min. manat və yaxud 9,1%-i xarici donorların vəsaitindən,
4. 78,9 min. manat və yaxud 8,5%-i büdcə vəsaitindən;
5. 329,5 min. manat və yaxud 35,6%-i üzvlük haqlarından;
6. 18,0 min. manat və yaxud 2,0%-i ianə qutulardan, təşkilatlar və ayrı-ayrı imkanlı şəxslərin ianələrindən;
7. 2,5 min. manat və yaxud 0,3%-i sair gəlirlərdən ibarətdir

Xərclər :

Azərbaycan QAC-nin 2006-cı ildəki xərcləri 924,4 min. manat olmuşdur.

2006-cı ildə Az QAC-ın xərclərin tərkibi aşağıda göstərildiyi kimi olmuşdur:

1. Beynəlxalq Federasiyanın maliyyə dəstəyi ilə yerinə yetirilən məqsədli proqramlar üzrə 352,9 min. manat və yaxud umumi xərclərin 38,2%-i;
2. Beynəlxalq Qızıl Xaç Komitəsinin maliyyə yardımı ilə yerinə yetirilən tədbirlərin maliyyəşdirilməsinə 59,7 min. manat və yaxud umumi xərclərin 6,5%-i;
3. İki tərəfli əməkdaşlıq əsasında xarici donorların vəsaiti hesabına yerinə yetirilən məqsədli proqramlara 84,6 min. manat və yaxud umumi xərclərin 9,1%-i;
4. Az. QAC hesabına humanitar yardımlara 102,8 min manat və yaxud ümumi xərclərin 11,1 %-i

   Ümumi: 600,0 min manat və yaxud ümumi xərclərin 64,9 %-i

Digər xərclər:

5. Beynəlxalq Federasiyaya ödənilən üzvlük haqqı (büdcə hesabına) 3,9 min.manat və yaxud umumi xərclərin 0,4 %-i
6. Təsərrüfat xərclərinə və əmək haqqına 184,8 min. manat və yaxud umumi xərclərin 20,0%-i (o cümlədən büdcə vəsaiti hesabına əmək haqqı 75,0 min manat və yaxud ümumi xərclərin 8,1 %-i)
7. Sair xərclərə 135,7 min. manat və yaxud umumi xərclərin 14,7%-i;

   Cəmi digər xərclər 324,4 min manat və yaxud ümumi xərclərin 35,1 %-i

1 ABŞ dolları - 0.8951 Azərbaycan manatı (AzN)
1 AVRO - 1,1196 AzN

## Gəlirlər: (min manat)




## Xərclər: (min manat)



# TARİX

**10 mart 1920-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin
yaranma günü

**1920-1991,** Sovet İttifaqı Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Liqasının üzvü

**25 noyabr 1994-cü il**
Azərbaycan Respublikası Milli Məclisinin «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işinin yaxşılaşdırılması haqqında» qərarı ilə Milli Cəmiyyətin tanınması

**01 noyabr 1995-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyəti Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən rəsmən tanınmışdır.

**26 Noyabr 1995-ci il**
Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının daimi, bərabər hüquqlu, həqiqi üzvü seçilmişdir.

**Dekabr 2001-ci il**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanov Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının İdarəetmə Şurasında «Fövqəladə Hallara Hazırlıq və Yardım Komissiyası»na ekspert təyin olunmuşdur.

**5 Sentyabr 2003-cü il**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işini yaxşılaşdırmaq haqqında» Sərəncamı

**31 Yanvar 2004-cü il**

Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri, möhtərəm, İlham Əliyev «Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında» sərəncam imzalamışdır.

10 mart 2005-ci il

Qızıl Ayparanın 85 illik yubileyi münasibətilə Respublika Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə xüsusi xidmətlərinə görə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanov və digər 6 əməkdaşı «Tərəqqi» medalı ilə təltif olunmuşdur.

8 may 2005-ci il

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin tibb işçiləri  Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ən yüksək «Florens Naytinqeyl» medalına layiq görülmüşlər.